# Bayramınız mübarək!


AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№75 (1345), 29 dekabr 2017 - 8 yanvar 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*




## Azad Rəhimov:

## "Bu il Azərbaycan idmançıları beynəlxalq arenalarda 851 medal qazanıblar"

Azərbaycan idmançıları 2017-ci il ərzində beynəlxalq yarışlarda, o cümlədən dünya və Avropa çempionatlarında, kubok turnirlərində 851 medal - 347 qızıl, 236 gümüş və 268 bürünc qazanıblar.

Bu sözləri gənclər və idman naziri Azad Rəhimov dekabrın 25-də ilin idman yekunlarına dair keçirilən mətbuat konfransında deyib.

Müxtəlif idman yarışlarında qazanılan medallar haqqında məlumat verən A.Rəhimov deyib ki, il ərzində ölkəmizdə 219 yerli, 55 beynəlxalq yarış keçirilib. Həmçinin 234 beynəlxalq yarışda ölkəmizin yığma komandalarının iştirakı təmin olunub: "Boksçularımız Almaniyada keçirilən kişilər arasında dünya çempionatında bir qızıl və bir bürünc medala layiq görülüblər. Məhəmmədrəsul Məcidov üçüncü dəfə dünya çempionu adına layiq görülüb. Antalyada gənclər arasında Avropa birinciliyində boksçularımız iki qızıl və iki bürünc medalla komanda hesabında dördüncü olublar.

*(ardı 2-ci səhifədə)*

## Azərbaycan Gimnastika Federasiyasının VIII ümumi yığıncağı keçirildi

Dekabrın 26-da Milli Gimnastika Arenasında Azərbaycan Gimnastika Federasiyasının (AGF) VIII ümumi yığıncağı keçirildi. Tədbirdə AGF-in vitse-prezidenti Altay Həsənov, AGF İcraiyyə Komitəsinin üzvü, Milli Məclisin deputatı Rauf Əliyev, Avropa Gimnastika İttifaqının prezidenti Fərid Qayıbov, AGF-nin baş katibi Nurlana Məmmədzadə, bədii gimnastika üzrə yığmanın baş məşqçisi Mariana Vasileva, Olimpiya çempionları, idmançılar iştirak edirdilər.

*(ardı 2-ci səhifədə)*




## ATLETİKA FEDERASİYASI 2017-Cİ İLƏ YEKUN VURDU




Dekabrın 27-də Milli Olimpiya Komitəsinin inzibati binasında Azərbaycan Atletika Federasiyasının illik hesabat yığıncağı keçirildi.

Tədbirdə Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Azərbaycan Atletika Federasiyasının (AAF) prezidenti Çingiz Hüseynzadə, AAF-ın vitse-prezidenti Firat Hüseynov, baş katib Məhərrəm Sultanzadə, məşqçilər və idmançılar iştirak edirdilər.

*(ardı 3-cü səhifədə)*


**Azərbaycan Həndbol Federasiyası**

**31 dekabr**

**Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il**

*münasibətilə ölkənin bütün idmançılarını təbrik edir, onlara ən xoş günlər və bol-bol idman sevincləri arzulayır!*




**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

### *UEFA Gənclər Liqası gənc futbolçular üçün ciddi sınaq, böyük təcrübə və əsl məktəbdir*

Səh. 6

## Anons


*Azərbaycan Milli Antidopinq Agentliyi il ərzində səmərəli fəaliyyət göstərib* Səh. 2

**AİJA ilin ən yaxşılarını müəyyənləşdirdi**
*"Olimpiya dünyası" qəzetinin əməkdaşı "İlin ən yaxşı jurnalisti" seçildi* Səh. 3

**Mövlud Mirəliyev:**
*"Cüdo mənim həyat tərzimdir"* Səh. 4


## Olimpizm

### Vladimir Mutko Olimpiya Hərəkatından kənarlaşdırılıb

Rusiya Federasiyasının vitse-prezidenti Vladimir Mutko İdman Arbitraj Məhkəməsinə (CAS) şikayət ərizəsi ilə müraciət edib. Müraciət Beynəlxalq Olimpiya Komitəsinin (BOK) onu ömürlük olaraq Olimpiya Hərəkatından uzaqlaşdırılması ilə bağlıdır.

Məlumat üçün bildirək ki, BOK dekabrın 5-də Vladimir Mutkonun Olimpiya Hərəkatından tamamilə uzaqlaşdırılması barədə qərar qəbul edib. Bu qərardan sonra Rusiya rəsmisi onun haqqında istintaq işləri başa çatana qədər Rusiya Futbol İttifaqının prezidenti vəzifəsindən də getməli olub.

### Pxenyan-2018 Olimpiadasının medal və talismanları təqdim olunub



Dekabrın 27-də Cənubi Koreyada Pxenyan-2018 Qış Olimpiya Oyunlarının medal və talismanları ictimaiyyətə təqdim olunub.

Pxenyan-2018 Olimpiadasının talismanları pələng Suxoran və ayı Pandabidir.

XXIII Qış Olimpiya Oyunları 2018-ci ilin fevral ayının 9-25-də keçiriləcək.



# Azad Rəhimov:

## "Bu il Azərbaycan idmançıları beynəlxalq arenalarda 851 medal qazanıblar"

*(əvvəli 1-ci səhifədə)*

Koreya Respublikasında keçirilən taekvondo üzrə böyüklər arasında dünya çempionatında idmançılarımız iki qızıl medala layiq görülüblər. Kiprin Larnaka şəhərində taekvondo üzrə gənclər arasında Avropa çempionatında bir qızıl və bir bürünc medal qazanılıb. Parisdə isə sərbəst güləş üzrə dünya çempionatında bir qızıl və iki bürünc medal əldə olunub. Hacı Əliyev üçüncü dəfə dünya çempionu adını qazanıb. Finlandiyanın Tampere şəhərində güləş üzrə gənclərin dünya birinciliyində idmançılarımız aktivlərinə bir qızıl, bir gümüş, beş bürünc medal yazdırıblar. Cüdo üzrə böyüklərdən ibarət yığma komandamız Macarıstanda keçirilən dünya çempionatında iki gümüş, iki bürünc medal qazanıb. Yığma komandamız Sloveniyanın Maribor şəhərində gənclər arasında Avropa birinciliyində 3 qızıl, 2 gümüş və 2 bürünc medalla komanda hesabında birinci yerə layiq görülüb".

Qeyri-Olimpiya idman növlərindən universal döyüş növünün müxtəlif versiyaları üzrə Ukraynada keçirilən Avropa çempionatında 7 medalın əldə olunduğunu vurğulayan nazir diqqətə çatdırıb ki, Rusiyanın Stavropol şəhərində tamblinq gimnastikası üzrə açıq Rusiya turnirində üç idmançımız öz yaş qruplarında qızıl medallara layiq görülüblər. Azərbaycan Tayvanın Taypey şəhərində tələbələrin 29-cu Ümumdünya Yay Universiadasına 29 nəfərlik nümayəndə heyəti ilə qatılıb. Ümumilikdə 134 ölkədən 7700-dən çox atletin idmanın 21 növü üzrə mübarizə apardığı yarışda Azərbaycan millisi idmanın dörd növündə 8 medal (3 qızıl, 1 gümüş, 4 bürünc) əldə edib. Həmçinin Rusiyanın Ulyanovsk şəhərində MDB-yə üzv dövlətlərin milli idman növləri üzrə I festival və idman oyunlarında idmançılarımız 21 medal - 5 qızıl, 6 gümüş və 10 bürünc qazanıblar.

Nazir vurğulayıb ki, 2017-2020-ci illər üçün Azərbaycan Respublikasının Vahid İdman Təsnifatı, idmançılarımızın XXXII Yay Olimpiya Oyunlarına hazırlıq konsepsiyasının layihəsi, 2018-ci il üçün idman növləri üzrə yığma komandaların idmançı və məşqçi heyətinin siyahıları artıq hazırlanıb.

Sonda jurnalistlərin sualları cavablandırılıb.



# Kikboksinq üzrə dünya çempionuna "Əməkdar idman ustası" adı verildi

Azərbaycan Kikboksinq Federasiyasının üzvü, dünya çempionu Zaur Yusifov kikboksinq idman növünün inkişafında göstərdiyi xidmətlərə görə, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən Əməkdar idman ustası adına layiq görülüb.

Zaur Yusifova mükafatı Azərbaycan Kikboksinq Federasiyasının prezidenti, millət vəkili Adil Əliyev təqdim edib.

# Azərbaycan Gimnastika Federasiyasının VIII ümumi yığıncağı keçirildi

*(əvvəli 1-ci səhifədə)*

Yığıncaqda federasiyanın vitse-prezidenti Altay Həsənov 2002-ci ildən fəaliyyətə başlayan AGF-in 15 illik yubileyinə dair hesabat məruzəsi ilə çıxış etdi. Ölkəmizdə idmanın inkişafına göstərilən dövlət qayğısından söhbət açan vitse-prezident 15 il ərzində gimnastlarımızın beynəlxalq arenada qazandıqları nailiyyətlərdən və Azərbaycanda gimnastika növləri üzrə irimiqyaslı yarışların yüksək səviyyədə təşkil olunduğundan danışdı. Ölkəmizdə gimnastikanın altı növünün də inkişaf etdiyini diqqətə çatdıran Altay Həsənov bu ilin may ayında Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunlarında gimnastlarımızın çıxışını yüksək qiymətləndirdi. Vitse-prezident dedi: "Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyeva gimnastikanın inkişafını həmişə diqqət mərkəzində saxlayır. Əldə olunan uğur və nailiyyətlərdə AGF rəhbərliyinin xidmətləri əvəzolunmazdır. AGF-in 15 il baş katibi vəzifəsində işləyən Fərid Qayıbovun Avropa Gimnastika İttifaqının prezidenti seçilməsi bu sahədə qazanılan nailiyyətlərin tərkib hissəsidir. Bu, Azərbaycan gimnastikasının dünyada böyük nüfuzundan xəbər verir".

AGF-nin nümayəndələrinin Beynəlxalq Gimnastika Federasiyasında 2007-ci ildən etibarən təmsil olunduqlarını qeyd edən Altay Həsənov AGF-nin beynəlxalq əlaqələr üzrə meneceri Mehman Əliyevin FIG-in Apelyasiya Tribunalının üzvü seçilməsini böyük uğur adlandırdı. O, hazırda bədii gimnastika üzrə 19 beynəlxalq dərəcəli hakimimizin olmasından, bu gün Bakı ilə yanaşı, Azərbaycanın 16 regionunda gimnastikanın inkişafından, yerli hakim və məşqçilərin ixtisasının artırılması üçün görülən işlərdən bəhs etdi.

AGF-nin vitse-prezidenti bu il Bakıda ilk dəfə olaraq keçirilən Beynəlxalq Gimnastika Federasiyasının (FIG) Şurasının iclası çərçivəsində ölkənin birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti, Mehriban Əliyevanın gimnastikanın inkişafındakı böyük xidmətlərinə görə FIG-in yüksək mükafatı ilə təltif olunduğunu xatırlatdı. AGF-in son 3 ildə ardıcıl olaraq FİG tərəfindən mükafatlandırılan federasiyalar siyahısına daxil olduğunu deyən natiq federasiyanın 15 il ərzində həm ölkədə, həm də beynəlxalq arenada bir çox uğurlara imza atdığını bildirdi: "İndi ən əsas məqsədimiz əldə olunan səviyyəni qoruyub saxlamaq və gimnastika növlərini daha da inkişaf etdirməkdir".

Tədbirin sonunda gimnastika sahəsində nailiyyətlərinə və xidmətlərinə görə fərqlənən idman gimnastı Murad Ağarzayevə, kişi idman gimnastikası üzrə baş məşqçi Rza Əliyevə və qadın idman gimnastikası üzrə baş məşqçi Nina Pravdinaya bürünc xatirə medalları təqdim olundu. Federasiyanın maliyyə direktoru Validə Məmmədovaya isə qızıl xatirə medalı verildi.

Mükafatlandırma mərasimindən sonra gimnastika növləri üzrə yığma komandaların üzvlərinin yeni geyim dəstlərinin dizayneri Mənzər Hacıyeva təqdimatla çıxış etdi.

Təqdimatdan sonra AGF-in İcraiyyə Komitəsinin üzvü Rauf Əliyev çıxış edərək görülən işlər, əldə olunan nailiyyətlər və perspektivli planlar barədə məlumat verdi. AGF-in İntizam Komitəsinin üzvü Elşad Nərimanov öz çıxışında ölkəmizdə gimnastikanın inkişafı və kütləviləşməsi istiqamətində aparılan işləri yüksək qiymətləndirdi.

***Səadət Hakıyeva***



# ARAF ilin yekunları ilə bağlı tədbir keçirib

Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə Binə Atçılıq mərkəzində keçirilən tədbirdə mövsümün yekunları müzakirə olunub. Əvvəlcə, qonaqlara 2017-ci ilin yarışlarını əks etdirən videoçarx göstərilib. Daha sonra Azərbaycan Respublikası Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev ili yüksək nailiyyətlərlə başa vuran idmançılara, məşqçilərə, hakimlərə və digər mütəxəssislərə fəxri diplomlar, habelə mükafatlar təqdim edib. Mükafatlandırma mərasimində çıxış edən federasiya prezidenti Azərbaycan atçılığının intibah dövrü yaşadığını, respublikada yeni idman qurğularının tikildiyini və bu idman növünün inkişaf etdiyini xüsusi vurğulayıb. Elçin Quliyev bütün nailiyyətləri Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğının nəticəsi kimi dəyərləndirib. O, tədbirdə atçılığın cıdır və konkur növləri üzrə müxtəlif turnirlərin, xüsusən də beynəlxalq yarışların müvəfəqiyyətlə təşkil olunduğu xatırlanıb. Çövkən oyunu üzrə Prezident Kuboku turnirinin uğurla keçirildiyi və bu idman növünün kütləvi xarakter aldığı bildirilib. Polo üzrə Azərbaycanda keçirilən Beynəlxalq turnirin də əhəmiyyəti qeyd olunub. İlin yekunlarına həsr olunan tədbir bədii proqramla başa çatıb.



# Azərbaycan Milli Antidopinq Agentliyi il ərzində səmərəli fəaliyyət göstərib

***Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) 2017-ci ildə İSO 9001:2015 beynəlxalq sertifikatını qazanıb ki, bu da antidopinq sahəsində mühüm nailiyyət hesab olunur.***

***Bunu hesabat ilində AMADA tərəfindən görülən işlərin yekunlarına həsr olunan mətbuat konfransında qurumun direktoru Şəfəq Hüseynli söyləyib.***

Ş.Hüseynli bildirib ki, 2017-ci ilin noyabrında Ümumdünya Antidopinq Agentliyinin (ÜADA) növbəti iclasında AMADA-nın ötən bir il ərzində gördüyü işlər yüksək qiymətləndirilib və Azərbaycan antidopinq sahəsində böyük addımlar atan və inkişaf edən nümunəvi ölkə kimi qeyd edilib.

AMADA-nın müsbət təcrübəsini bölüşməsi üçün bu qurumun direktoru ÜADA-nın dəvəti ilə 2018-ci ilin martında keçiriləcək mötəbər simpoziuma dəvət olunub.

Diqqətə çatdırılıb ki, gələn ilin noyabrında Bakıda ÜADA İcraiyyə Komitəsi və Təsisçilərin Ümumi Yığıncağının konfransı keçiriləcək. 2018-ci ildə Koreya Respublikasında təşkil olunacaq Qış Olimpiya Oyunları zamanı ÜADA-nın dəvəti ilə AMADA-nın iki əməkdaşı maarifləndirmə proqramında və dopinq nəzarətində iştirak edəcək. Cari ildə AMADA ÜADA-nın yekun hesabatını uğurla təhvil verib və bu, beynəlxalq qurum tərəfindən müsbət qiymətləndirilib. Dopinqə qarşı mübarizəni gücləndirmək məqsədilə AMADA dopinq vasitələrinin qanunsuz dövriyyəsi barədə qanunvericilikdə, xüsusən Cinayət və İnzibati Xətalar məcəllələrində müəyyən dəyişikliklərin olunması layihəsini hazırlayıb və müvafiq qurumlara təqdim edib. Bu dəyişikliklər Milli Məclisin yaz sessiyasında müzakirə ediləcək. "Yaşıl qal!" ekoloji və iqtisadi cəhətdən təmiz fəaliyyət və təmiz idmanın təbliği üçün AMADA yaşıl ofis sisteminə keçir və buna dair müvafiq addımlar atır.

Mətbuat konfransında bildirilib ki, AMADA ölkədə dopinqlə mübarizənin səmərəli şəkildə aparılması üçün müxtəlif qurumlarla əməkdaşlıq edir. Ölkədə fəaliyyət göstərən respublika idman federasiyaları ilə memorandum imzalanıb. Memorandumun mövzusu antidopinq qaydalarının tanınması, idmançıların maarifləndirilməsi və dopinqlə birgə mübarizədir.

# Zəka sahiblərimiz mübarizəyə başladılar

Dekabrın 26-da Səudiyyə Ərəbistanın paytaxtı Ər-Riyadda sürətli şahmat və blits üzrə dünya çempionatları (King Salman World Rapid və Blitz Chess Championships) start götürüb. Keçən il olduğu kimi, bu il də yarışlar kişi və qadın şahmatçılar arasında eyni vaxtda təşkil edilir. Turnirin ümumi mükafat fondu 2 milyon ABŞ dollarıdır. Bu məbləğin 1,25 milyon dolları kişi şahmatçıların, 750 min dolları qadın şahmatçıların yarışına aiddir.



Yarışda bir çox məşhur qrossmeysterlər, o cümlədən dünya çempionları Maqnus Karlsen (klassik), Vasili İvançuk (rapid) və Sergey Karyakin (blits) iştirak edirlər. Turnirdə ölkəmiz 11 zəka sahibi (6 kişi və 5 qadın) ilə təmsil olunur. On beş turdan ibarət olan bu yarışlar İsveçrə sistemi üzrə keçirilir.

Blits üzrə çempionat isə dekabrın 29-30-da keçiriləcək və 11 qoşa turdan ibarət olacaq. Yarışlarda 55 ölkədən 200 şahmatçı iştirak edir.

# Azərbaycan çempionatı başa çatıb

***Dekabrın 26-28-də Bakı İdman Sarayında kişilər, qadınlar və usta cüdoçular arasında Azərbaycan çempionatı keçirilib. Turnirin açılış mərasimində Gənclər və İdman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Mədət Quliyev, Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq Abdullayev iştirak edib. Əvvəlcə, iştirakçı komandalar meydana dəvət olunublar.***

Gənclər və İdman naziri Azad Rəhimov tədbirdə çıxış edərək 55 idman klubundan 500-dək cüdoçunun iştirak etdiyi çempionatın əhəmiyyətini yüksək qiymətləndirib. Azad Rəhimov Azərbaycan çempionatının mühüm sınaq olduğunu və istedadlı idmançıların yetişməsi baxımından əhəmiyyətini qeyd edib. Azərbaycan cüdoçularının yüksək nailiyyətləri ilə seçildiklərini xüsusi vurğulayan nazir idmançılarımızın bu il qazandıqları 851 medaldan 193-nün cüdoçuların payına düşdüyünü bildirib.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Mədət Quliyev ölkəmizdə idmanın bu növü üzrə parlaq nəticələrin əldə edilməsinin sevindirici olduğunu vurğulayıb. İdmanın bu növünün inkişafında belə mötəbər turnirlərin əhəmiyyətini qeyd edən Mədət Quliyev veteran cüdoçular adından iştirakçılara uğurlar arzulayıb.




Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə bu yaxınlarda dövlətimizin başçısı İlham Əliyevin idmançıları, o cümlədən cüdoçuları da mükafatlandırdığını diqqətə çatdırıb. MOK-un vitse-prezidenti 2017-ci ildə qazanılan uğurlarda cüdoçuların böyük payının olduğunu, Tokio-2020 Yay Olimpiya Oyunlarında onlara böyük ümidlər bəslənildiyini vurğulayıb.

Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq Abdullayev cüdoçularımızın 2017-ci ildə də mühüm uğurlar qazandıqlarını deyib. Federasiya prezidenti Azərbaycanı beynəlxalq arenalarda layiqincə təmsil etdiklərinə görə cüdoçulara minnətdarlığını bildirib. O, bu uğurların növbəti ildə də təkrarlanması üçün idmançılara hər cür şəraitin yaradıldığını qeyd edib.

Çempionatı açıq elan edən Rövnəq Abdullayev cüdoçulara uğurlar arzulayıb.

Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsindən sonra 2018-ci ildə ölkəmizdə təşkil olunacaq cüdo üzrə dünya çempionatına dair videoçarx göstərilib.

Yarışın ilk iki günündə kişi və qadın cüdoçular, sonuncu günündə isə veteran idmançılar tatami üzərinə çıxıblar. Müxtəlif çəki dərəcələri üzrə keçirilən yarışda qaliblər müəyyənləşib. Qaliblərə diplom, medal və pul hədiyyələri təqdim olunub.

## Atletika



# Atletika federasiyası 2017-ci ilə yekun vurdu

*(əvvəli 1-ci səhifədə)*

Yığıncağı giriş sözü ilə açan Çingiz Hüseynzadə yola salmağa hazırlaşdığımız 2017-ci ilin ölkəmizin idman həyatı üçün uğurlu illərdən biri olduğunu diqqətə çatdırdı. AAF-ın prezidenti bu ilin rəhbərlik etdiyi federasiya üçün də uğurlu keçdiyini dedi: "Atletlərimiz il ərzində 26 medal qazanıblar. İki idmançımız dünya çempionatında 5-ci yeri tutub. Federasiyamız üçün yüksək nəticələrdən biri də bu il ölkəmizdə keçirilən IV İslam Həmrəyliyi Oyunlarında əldə edilib. Tələbələrin Yay Universiadasında 3 qızıl medal qazanmışıq. Federasiya nümayəndələrindən üç nəfəri ilin yekunlarına görə Gənclər və İdman Nazirliyinin nominasiyasında mükafata layiq görülüb. Avropa çempionu, IV İslam Həmrəyliyi Oyunlarının və Tələbələrin Yay Universiadasının (Taypey) qalibi Nazim Babayev "İlin ən yaxşı idmançısı", atletika üzrə yığma komandanın tullanma üzrə böyük məşqçisi Ziyad Xəlfəyev "İlin ən yaxşı məşqçisi", IV İslam Həmrəyliyi Oyunlarının baş hakimi Vüqar Ələsgərov "İlin ən yaxşı hakimi" adına layiq görülüblər".

AAF-ın prezidenti idmançılara yeni ildə uğurlar arzulayaraq bildirdi ki, federasiya bundan sonra da ölkədə atletikanın inkişafı üçün əlindən gələni etməyə çalışacaq və nəticələri daha da yaxşılaşdıracaq. Çingiz Hüseynzadə çıxışının sonunda 2019-cu ildə keçiriləcək iki mühüm tədbirdən danışdı. O bildirdi ki, bu mühüm tədbirlərdən biri - Avropa Yeniyetmələrinin Olimpiya Festivalı Bakıda keçiriləcək. İkinci mühüm tədbir isə Minsk-2019 II Avropa Oyunlarıdır.

Məhərrəm Sultanzadə Asiya Atletika Federasiyaları Assosiyasiyasının AAF-a ünvanladığı "Avropanın ən fəal üzvü" diplomunu federasiya rəhbəri Çingiz Hüseynzadəyə təqdim etdi.

Yığıncağın sonunda qaliblər mükafatlandırıldılar.

## Güləş

## *AGF-in birinci vitse-prezidenti güləşçilərlə görüşüb*



Azərbaycan Güləş Federasiyasının (AGF) 1-ci vitse-prezidenti Sahib Ələkbərov yunan-Roma və sərbəst güləş üzrə böyüklər arasında Azərbaycan çempionatının qalib və mükafatçıları ilə görüşüb. AGF-nin 1-ci vitse-prezidenti güləşçilərin çempionatda böyük əzmkarlıqla mübarizə apardıqlarından razı qaldığını bildirib: "Azərbaycan Güləş Federasiyası tərəfindən yığma komandaların seçiminə daim ədalətlə yanaşılıb və idmançıların beynəlxalq arenada ölkəmizi layiqincə təmsil etmələri üçün hər cür şərait yaradılıb. Ölkəmizdə idmana və idmançılara dövlət səviyyəsində diqqətin nəticəsidir ki, bu gün Azərbaycan idmançıları, xüsusi ilə güləşçilərimiz ən mötəbər beynəlxalq yarışların nəticələrinə görə ilk üçlükdə yer almağı bacarırlar. Sizin öhdənizə isə bu ənənəni qoruyub saxlamaq və daha da inkişaf etdirmək vəzifəsi düşür."

Hər bir idmançıya uğur arzulayan AGF-nin 1-ci vitse-prezidenti qələbəyə, uğura gedən yolun nizam-intizamdan və yüksək hazırlıq səviyyəsindən keçdiyini xüsusi ilə vurğulayıb: "Sizin hər biriniz çalışmalısınız ki, keçirilən təlim-məşq toplanışlarında məşqçilərin tapşırıqlarına əməl edib, öz üzərinizdə çox çalışasınız. Təbii ki, burada nizam-intizam mühüm şərtdir. Tokio-2020 Yay Olimpiya Oyunlarının iştirakçıları sizin aranızdadır".

Sərbəst güləş üzrə yığma komandanın baş məşqçisi Firdovsi Umudov da idmançılar və federasiya rəhbərliyi qarşısında çıxış edərək bildirib ki, bundan sonra da onlara göstərilən etimadı doğrultmağa çalışacaqlar: "Biz hər zaman dövlətimizin və federasiyamızın dəstəyini hiss etmişik. Biz də çalışırıq ki, ölkəmizi, bayrağımızı layiqincə təmsil edək. Bunun üçün əlimizdən gələn nə varsa edirik və edəcəyik. Qarşıdakı yarışlarda hər bir komanda üzvünü sınaqdan keçirəcək, qitə və dünya çempionatlarının heyətini müəyyənləşdirəcəyik".

Məlumat üçün bildirək ki, sərbəst və yunan-Roma güləşi üzrə böyüklər arasında Azərbaycan çempionatı yeni qaydalara uyğun olaraq keçirilib.

# AİJA ilin ən yaxşılarını müəyyənləşdirdi

## *"Olimpiya dünyası" qəzetinin əməkdaşı "İlin ən yaxşı jurnalisti" seçildi*

***Artıq bir neçə gündən sonra 2017-ci ilə əlvida, 2018-ci ilə "xoş gəldin" deyəcəyik. Yola saldığımız ilin son günlərində müxtəlif sahələrdə olduğu kimi, idman sahəsində də 2017-ci ilin yekunlarına həsr olunmuş tədbirlər keçirilir. Bu sahədə fərqlənənlər ilin ən yaxşıları seçilirlər.***

***Ölkəmizdə fəaliyyət göstərən idman jurnalistlərinin milli yaradıcılıq təşkilatı olan AİJA, ənənəvi olaraq, Azərbaycanda 2017-ci ilin idman laureatlarını müəyyən etmək üçün keçirdiyi rəy sorğusuna yekun vurub.***

**2017**-ci ilin sorğusuna əsasən, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva ilin ən yaxşı idman təşkilatçısı seçilib. İlin idman xadimi nominasiyasında Fərid Qayıbov (Avropa Gimnastika İttifaqının prezidenti seçilib), qadınlar arasında ilin idmançısı nominasiyasında Mariya Stadnik (güləş, Avropa çempionu), Marina Durunda (bədii gimnastika, IV İslam Həmrəyliyi Oyunlarında 3 qızıl medal), Patimat Abakarova (taekvondo, IV İslam Həmrəyliyi Oyunlarının qalibi), kişilər arasında isə Hacı Əliyev (güləş, 3-cü dəfə dünya çempionu olub), Məhəmmədrəsul Məcidov (boks, 3-cü dəfə dünya çempionu olub), Milad Beigi Herçəqani (taekvondo, dünya çempionu) seçilib.

İlin komandası nominasiyasında "Qarabağ" FK (UEFA Çempionlar Liqasının qrupuna yüksəlib), şahmat üzrə milli komanda (3-cü dəfə Avropa çempionu olub), cüdoçular fərqləniblər (oğlanlar, Avropa birinciliyinin qalibi). İlin məşqçisi Qurban Qurbanov ("Qarabağ" FK-nın baş məşqçisi), Faiq Qarayev (voleybol, IV İslam Həmrəyliyi Oyunlarının qalibi), Elçin İsmayılov (cüdo, dünya birinciliyinin qalibi (komanda)), ilin idman hakimi Hicran Şərifov (Olimpiya kateqoriyalı Beynəlxalq dərəcəli hakim (güləş)), ilin idman azarkeşi Elşən Məmmədov elan olunub. Sorğunun nəticələrinə görə idman qəzetləri üzrə ilin idman yazarı Anar Əhmədov ("Olimpiya dünyası"), futbol qəzetləri üzrə Həbib Aslanov ("Futbol+"), ictimai-siyasi qəzetlər üzrə Oqtay Bayramov ("Xalq" qəzeti), bölgə qəzetləri üzrə Akif Ağayev ("Yeni həyat" Masallı) qalib olub. Televiziya üzrə Ürfan Məmmədli ("CBC SPORT"), İnformasiya agentlikləri üzrə Vüqar Xeyrullayev ("Apasport") seçilib. İlin idman nəşri nominasiyasında "Şuşada voleybolu sevirdilər..." kitabı (Müəllif Əbülqasım Novruzov) qalib olub. İlin fotoreportyoru Leyla Nağıbəyova ("Neftçi" FK-nın fotoqrafı), ilin idman qəzeti "Futbol+", ilin idman telekanalı "CBC SPORT", ilin idman mətbuat xidməti Azərbaycan Velosiped İdmanı Federasiyası, idman saytları arasında ilin internet portalı "sport24.az", informasiya saytları arasında "1news.az" fərqlənib. İlin idmanı ən yaxşı işıqlandıran informasiya agentliyi isə AZƏRTAC seçilib.

## Cüdo

# Federasiyada yeni əməkdaşlıq sazişi imzalanıb



Dekabrın 27-də Azərbaycan Cüdo Federasiyasında yeni əməkdaşlıq sazişi imzalanıb. Sazişi ölkəmizdə səfərdə olan İran İslam Respublikası Cüdo Federasiyasının prezidenti Məhəmməd Deraxşanmübarək, İraq Cüdo Federasiyasının prezidenti Samir Əl-Musəvi və Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti Sadıq Sadıqov imzalayıblar. Əməkdaşlıq sazişinə əsasən federasiyalar dostluq münasibətlərini və qarşılıqlı əməkdaşlığı inkişaf etdirərək, bütün yaş qrupları üzrə milli yığma komandaların birgə təlim-məşq toplanışlarını, turnirlər, yoldaşlıq görüşlərinin təşkili və keçirilməsini reallaşdıracaq. Tərəflərin üzvü olan idman təşkilatlarının, eləcə də idman məktəblərinin əməkdaşlığına şərait yaradılacaq. Məşqçilər və hakimlər üçün birgə seminarlar təşkil ediləcək. Müxtəlif təcrübə mübadiləsi layihələrinin hazırlanması və həyata keçirilməsi də nəzərdə tutulur. Həmçinin, müxtəlif yarışlarda təmsil olunmaq üçün zərurət yaranmış çəki dərəcələrində idmançı transferlərinin həyata keçirilməsi də gələcək planlar daxilindədir.

Görüşdə Sadıq Sadıqov qonaqlara xatirə hədiyyələrini təqdim edib.

## İdman cəmiyyəti

# Gömrükçülər güləş üzrə açıq birincilikdə yarışıblar

***Şağan Olimpiya İdman Kompleksində dekabrın 24-dən 26-dək Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin "Gömrükçü" İdman Klubunun sərbəst və yunan-Roma güləşi üzrə açıq birinciliyi keçirilib.***

Yarışda paytaxt və bölgələri təmsil edən 300-dək idmançı qüvvəsini sınayıb. Birincilikdə 2001-2003-cü illər təvəllüdlü yeniyetmələr və 2004-2006-cı illər təvəllüdlü gənclər mübarizə aparıblar. Dekabrın 24-də yarışların təntənəli açılış mərasimi keçirilib. Mərasimdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Dövlət Gömrük Komitəsinin İdman Sağlamlıq Mərkəzinin sədri Xəzər İsayev, Şağan Olimpiya İdman Kompleksinin direktoru Atakişi Cahanov iştirak ediblər.

Şağan Olimpiya İdman Kompleksinin direktoru Atakişi Cahanov yarış iştirakçılarını salamlayaraq onlara gərgin mübarizədə uğurlar arzulayıb.



Mərasimdə çıxış edən MOK-un vitse-prezidenti Xəzər İsayev əsası ümumilli lider Heydər Əliyev tərəfindən qoyulan idman siyasətinin Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyib. Ölkəmizdə idmanın yüksək səviyyədə inkişaf etdiyini bildirən DGK İSM-ın sədri təmsilçilərimizin müxtəlif mötəbər yarışlardan vətənə medallarla döndüklərini, Azərbaycanı dünyada layiqincə tanıtdıqlarını dilə gətirib. Yarışın əhəmiyyətini yüksək qiymətləndirən Xəzər müəllim böyük idmana gedən yolun məhz belə yarışlardan başladığını qeyd edib.



Yarışlar açıq elan olunduqdan sonra Azərbaycan Dövlət himni səsləndirilib. Yekun nəticəyə əsasən yunan-Roma güləşi üzrə yarışlarda "Gömrükçü" İK (1 saylı nümayəndəlik) birinci, ROİL ikinci, Sumqayıt komandası üçüncü olub. Sərbəst güləş üzrə yarışlarda "Gömrükçü-Cəlilabad" birinci, ROİL ikinci, Şağan OİK-in təmsilçiləri üçüncü pillədə yer alıblar.

## Karate

# *Bakıda beynəlxalq karate turniri təşkil ediləcək*

Yanvarın 13-14-də Azərbaycan Milli Karate Federasiyası (AMKF) və "Arpaçay" klubunun birgə təşkilatçılığı ilə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş beynəlxalq yarış keçiriləcək. Yarışın təntənəli açılış mərasimi ayın 14-də olacaq.

2-ci "Arpachay Open" beynəlxalq karate turnirindən bir gün əvvəl isə 5 qat dünya və 13 dəfə Avropa çempionu Rafael Ağayevin Azərbaycanda ilk beynəlxalq seminarı təşkil olunacaq. Hər iki idman tədbiri Bakı İdman sarayında keçiriləcək. Yarışlarda 6-17 yaşlı uşaqlar, yeniyetmə və gənclər mübarizə aparacaqlar. Yanvarın 13-də 6-7, 8-9 və 10-11 yaşlı uşaqlar, ertəsi gün isə 12-13, 14-15 və 16-17 yaşlı idmançılar tatamiyə çıxacaqlar. Fərdi kata və kumite yarışlarından əlavə, kumite üzrə komanda çıxışları da keçiriləcək.

# Karate-do akademiyası karateçiləri bir araya topladı

Dekabrın 23-də Sabunçu rayonu "Gənclər evi"ndə Karate-do Akademiyası ilin yekunları ilə bağlı hesabat xarakterli konfrans keçirib. Tədbirdə akademiyanın vitse-prezidenti Vüsal Abdullazadə, Milli Qəhrəman Kamal Musavi, Azərbaycan Alpaqut Federasiyasının prezidenti Aqil Acalov, Real-aykido Federasiyasının prezidenti Fariz Abdullayev, Kempo Federasiyasının prezidenti Rauf İbrahimov və başqaları iştirak edib.



Tədbiri giriş sözü ilə açan akademiyanın vitse-prezidenti karatenin ölkəmizdəki inkişafından danışıb. O qeyd edib ki, yola saldığımız ildə akademiyanın idmançıları bir sıra uğurlara yiyələniblər. Çıxışlar başa çatdıqdan sonra il ərzində fərqlənən idmançılara diplom və qiymətli hədiyyələr təqdim olunub. Bundan başqa akademiya rəhbərliyi tərəfindən qurumun və idmançıların uğurlarını işıqlandıran KİV nümayəndələri də diplomla mükafatlandırılıblar.

Qeyd edək ki, mükafat alanlar arasında "Olimpiya dünyası" qəzetinin əməkdaşı Kənan Novruzov da olub.

Sonda xatirə şəkilləri çəkilib.

Müsahibə

*Müsahibə elə bir janrdır ki, gərək müsahibin maraqlı və cəmiyyətdə sayılıb, seçilən ol- sun. Onun danışdıqları diqqət çəksin, hər bir sualından sual yaransın, danışdıqca bu söh- bətdən zövq alasan. Bu cür müsahiblərlə ərsəyə gələn yazı isə oxucuların rəğbətini qazan- sın. "Olimpiya dünyası" qəzetinin əməkdaşları hər zaman çalışır ki, cəmiyyətdə nüfuz qa- zanan idmançılarla görüşüb, onların maraqlı fikirlərini öyrənsin. Belə idmançılardan bi- ri də Pekin-2008 Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı Mövlud Mirəliyevdir. Ona ünvanlanan sualları o, bir qədər ehtiyatla cavablandırdı. Müsahibə verməklə heç də ara- sı olmayan həmsöhbətimiz ona ünvanlanan suallara fərqli şəkildə yanaşdı. Lakin bizim üçün onunla bağlı heç bir sual qaranlıq qalmadı. Olimpiya mükafatçısı ilə müsahibəni oxucularımıza təqdim edirik.*

# Mövlud Mirəliyev:
# "Cüdo mənim həyat tərzimdir"

***- Mövlud müəllim, istərdik söhbətimizə fəaliyyətinizdəki yeniliklərdən başlayaq. Bildiyimizə görə Qərb bölgəsinin nümayəndəliyinə rəhbər təyin olunmusunuz?***

- Qərb bölgəsinin nümayəndəliyinə əlaqələndirici təyin olunmuşam. Qərb zonasında Cüdo Federasiyası ilə birgə bu idman növünün inkişafı istiqamətində böyük işlər həyata keçirəcəyik. Hazırda əsas məqsədimiz bu zonada istedadlı idmançıları üzə çıxarmaq və onların təcrübələrini artırmaqdır. Onu da deyim ki, artıq yığma komandada köməkçi məşqçi funksiyasını yerinə yetmirəm. Öz istəyimlə bu vəzifədən uzaqlaşdım. Məşqçi olduğum vaxtda çox həyəcan keçirirdim. İstəmirəm ki, idmançı kimi keçirdiyim həyəcanı, stressi yenidən yaşayım. Bundan başqa, fikrimcə, bölgələrdə də cüdonu inkişaf etdirmək lazımdır.

***- Şəmkir Olimpiya Kompleksindəki fəaliyyətiniz nə yerdədir?***

- Kompleksdə 350-dən çox uşaq və gənc müxtəlif idman növlərinin sirlərinə yiyələnir. Əsasən cüdo, sambo, güləş, karate, boks, qarışıq döyüş növləri, futbol, üzgüçülük bölmələrimiz fəaliyyət göstərir. Hazırda zal ilə bağlı müəyyən problemlərimiz var. Çalışacağıq ki, bu problemləri aradan qaldırdıqdan sonra idman növlərinin sayını bir qədər də artıraq.

***- Buyaxınlarda Şəmkir Olimpiya İdman Kompleksində cüdo üzrə beynəlxalq turnir təşkil etdiniz.***

- Dekabrın 15-17-də Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar beynəlxalq yarış keçirdik. Bu yarışı keçirməkdə əsas məqsədimiz Qərb bölgəsində cüdonun inkişafına, kütləviliyinə nail olmaq, həmçinin uşaq və gənclərin hazırlıq səviyyəsini yüksəltməkdən ibarət idi. Gələcəkdə bu turniri Gəncə şəhərində də keçirməyi planlaşdırırıq. Çalışacağıq ki, bu turnirdən sonra idmançıların təcrübələrini artırmaq məqsədi ilə yarışdan sonra üç günlük təlim-məşq toplanışı təşkil edək.

***- Siz Afina-2004 və Pekin-2008 Yay Olimpiya Oyunlarında idmançı kimi iştirak etmisiniz. Həmin anları necə xatırlayırsınız?***

- Afina Olimpiadasına qədər hər zaman düşünürdüm ki, cüdoda güləşsəydim, mən də Olimpiya oyunlarında medal qazana bilərdim. Arzum Olimpiya oyunlarında iştirak etmək idi. Elə də oldu. 2002-ci ildə cüdo üzrə yığma komandanın üzvü oldum. 2004-cü ildə isə Afina Olimpiya oyunlarında iştirak etdim. Olimpiya Oyunlarının ab-havası tam başqa olur, hamı səndən medal gözləyir. İlk dəfə idi ki, olimpiadada iştirak edirdim. Çox həyəcanlı idim. Afina Olimpiadasında üçüncü yer uğrunda görüşdə almaniyalı rəqibimə məğlub oldum və beşinci yeri tutdum. Bu yarışdan sonra çox sarsıldım. Hətta bu hadisə aylarla mənim yuxuma girirdi. Deməli olar ki, bu stressdən çıxa bilmirdim. Gücüm yalnız özümü qınamağa çatırdı ki, nəyə görə belə oldu. Sonradan özümdə güc tapdım və dedim ki, nə olursa-olsun Olimpiya oyunlarında medal qazanmalıyam.

***- Pekin Olimpiadasında artıq təcrübəniz də kifayət qədər idi.***

- Bəli. Pekin-2008-də artıq 34 yaşım var idi. Bu mənim karyeramın son Olimpiadası idi. Çox istəyirdim ki, bu yarışda medal qazanım. Pekin Olimpiya Oyunlarında artıq çox sərbəst güləşirdim, həyəcanlanmırdım. Beş idmançı ilə qarşılaşdım. Yarımfinalda monqolustanlı cüdoçu ilə üz-üzə gəldim.

## "Bu nədir, mən nə etdim?"

***- Monqolustanlı idmançı ilə görüşünüz çox çətin oldu. Demək olar ki, 9 dəqiqə güləşdiniz.***

- Bəli. Görüşün əsas beş dəqiqəsi ərzində qalib müəyyənləşmədi. Çox təəssüf ki, bu görüşdə qızıl xalla rəqibimə məğlub oldum. Onu da deyim ki, rəqibim məndən 10 yaş balaca idi. Bu məğlubiyyətdən sonra yenə də çox stress keçirdim. Afinada yaşadığım uğursuzluqlar gözümün qabağına gəldi. Özümə dedim: "Bu nədir, mən nə etdim? Yəni 2004-cü ildə başıma gələnlər yenidən təkrarlanacaq? Yox, bu, belə olmaz. Hər kəs məndən medal gözləyir. Özümdə güc toplayıb üçüncü yer uğrunda mübarizə aparmalıyam". Üçüncü yer uğrunda görüşdən əvvəl Ağayar müəllim məni ruhlandırdı. Dedi ki, mübarizə hələ davam edir, sən güləşməlisən. Doğrudan da bu məğlubiyyət mənə çox pis təsir etmişdi. "Görəsən, rəqibimə qalib gələ biləcəyəm?" sualı məni rahat buraxmırdı. Artıq həm çox həyəcanlı, həm də çox əsəbi idim. Onu da etiraf edim ki, yarış vaxtı dincəlməyə çox vaxtım olmadı. Həm yaşımın kifayət qədər çox olması, həm də monqolustanlı cüdoçu ilə 9 dəqiqəlik görüş məni çox yormuşdu. Amma boxtimdən bürünc medal uğrunda görüşümdən əvvəl qadın güləşçilərin yarışı da bir qədər



gec başa çatdı. Dincəlmək üçün müəyyən qədər vaxt qazandım.

***- Beləliklə, Pekin-2008 Yay Olimpiya Oyunlarında bu arzunuzu həyata keçirdiniz...***

- Bürünc medal uğrunda görüşə çıxanda artıq bütün həyəcanımı boğa bildim. Çox rahat güləşirdim. Görüşün əvvəllərində xəbərdarlıqla rəqibimə uduzurdum. Lakin özümdə güc taparaq rəqibimə fənd tətbiq etdim və irəli çıxdım. Görüşün başa çatmağına 6 saniyə qalmış rəqibimə ipponla qalib gəldim. Həmin gün, bəlkə də, məndən xoşbəxt insan ola bilməzdi.

## "Axır ki, bunu bacardım"

***- Həmin görüş başa çatdıqdan sonra əlinizi tatamiyə çırpdınız. Bununla nəyi demək istəyirdiniz?***

- Yəni axır ki, arzuma çatdım, axır ki, bunu bacardım. Bu zərbə ilə sanki çəkdiyim bütün çətinliklərin, stresslərin əvəzini çıxdım. Düzdür, əsas məqsədim qızıl medal qazanmaq idi. Lakin Olimpiya oyunlarının bürünc medalı da çox böyük uğurdur. Əgər finala çıxa bilsəydim, qızıl medal qazana bilərdim. Çünki çempion olan idmançını əvvəlki yarışlarda bir neçə dəfə məğlub etmişdim. Nə etmək olar? Qismət belə imiş. Bununla belə şükr edirəm ki, Olimpiya tarixinə öz adımı yazdıra bildim və medal kolleksiyama Olimpiya medalını əlavə etdim. Dəfələrlə cüdo və sambo idman növləri üzrə keçirilən beynəlxalq yarışların qalib və mükafatçısı olmuşam. Lakin bu bürünc medal mənim üçün bütün medallarımdan üstündür.

***- Bir vaxtlar idmançı kimi iştirakçısı olduğunuz Olimpiya oyunlarında həm də məşqçi kimi iştirak etmisiniz. Necə düşünürsünüz, olimpiadaya məşqçi kimi yollanmaq daha çox məsuliyyət tələb edir, yoxsa idmançı kimi?***

- Fikrimcə, məşqçi kimi iştirak etmək çox çətindir. Üzərimizdə çox böyük məsuliyyət var idi. Olimpiya oyunlarında idmançının həyəcanı başqa cür olur. Təbii ki, məşqçilər də həyəcan keçirirlər. Amma çalışırıq ki, bu həyəcanı idmançılardan gizlədək. İdmançı kimi keçirdiyim həyəcan məşqçi həyəcanına çata bilməz. İdmançı kimi tək özünün çıxışına görə həyəcanlanırsan. Amma məşqçi kimi bütün komandanın məsuliyyətini daşıyırsan. Yəni məşqçilik çətindir, nəin ki, idmançı olmaq. Sevindirici haldır ki, Rio Olimpiadasında çox uğurlu nəticə qazandıq. Komandamız iki gümüş medal əldə etdi. Bu il həmçinin çox böyük uğurlar qazandıq. Həm Avropa, həm də dünya çempionatında çox uğurlu nəticələrə nail olduq. Bundan başqa paytaxtımızda keçirilən IV İslam Həmrəyliyi Oyunlarında bütün çəki dərəcələrində qalib olduq və komanda yarışlarında birinci yeri tutduq.

Bu uğurda təbii ki, Azərbaycan Cüdo Federasiyasının da böyük payı var. Çünki federasiya tərəfindən bütün təlim-məşq toplanışları və yarışlarda iştirak etməyimiz üçün şərait yaradılıb. Yəni uğurun əldə olunmasında 50 faiz məşqçinin payı varsa, 50 faiz də federasiyanın payı var.











***- Avropa Oyunları ərəfəsində samboya qayıtmaq fikriniz olduğunu demişdiniz...***

- Avropa Oyunlarının tarixi Bakıda yazıldı. Bu, Azərbaycan idmanı üçün böyük uğur oldu. Qeyd etdiyim kimi, karyeram ərzində bütün yarışlarda iştirak etmişəm. Çox istəyirdim ki, Avropa Oyunlarında da iştirak edim. Avropa Oyunlarına az bir müddət qalmış sambo yarışlarında qüvvəmi sınadım. Amma məşq zamanı çiynimdən zədə aldım. Çox təəssüf ki, bu zədəyə görə Bakı-2015-də idmançı kimi iştirak edə bilmədim.

***- Bildiyimizə görə zədələr indi də sizi rahat buraxmır.***

- 2005-ci ildə boyun fəqərəsindən ağır əməliyyat keçirdim. Bundan sonra həkimlər mənə idmanla məşğul olmağıma icazə vermədilər. Onların rəyinə görə bu zədə sonradan məndə başqa fəsadlar törədə bilərdi. Lakin həkimlərin bu qərarına məhəl qoymadım. Dedim ki, nə olursa olsun bunun axırına çıxmalıyam. Bir müddətdən sonra yenə müayinədən keçdim və onurğa sütunumda problemlər aşkarlandı. Müalicə olundum. Amma yenə də bu problemlər özünü biruzə verir.

***- Mövlud Mirəliyev üçün tatamidə ən unudulmaz məğlubiyyət hansı olub?***

- Afina-2004 Olimpiadasında üçüncü yer uğrunda almaniyalı idmançı ilə keçirdiyim görüş. Medalın bir addımlığında məğlub oldum. Bu məğlubiyyətə görə aylarla özümə gələ bilmədim. Sonra həmin almaniyalı cüdoçu ilə üç dəfə qarşılaşdım və hər üç görüşdə qalib gələrək revanş aldım. Amma bu mənə Afina Olimpiadasındakı keçirdiyim stresləri unutdurmadı və bürünc medalı geri qaytarmadı. Bundan başqa Pekindəki Olimpiya Oyunlarında yarımfinal görüşündəki məğlubiyyətim də çox təsirli olmuşdu. Lakin həmin olimpiadada medal qazandığım üçün bu məğlubiyyət bir qədər yaddan çıxdı.

***- Əgər idmançı olmasa idiniz hansı peşəni seçərdiniz?***

- Yəqin ki, hərbçi olardım. Bu peşəyə uşaqlıqdan çox böyük marağım var. Həyatda həmişə nizam-intizama çox üstünlük verirəm. Ailəmizdə bu cəhətə çox diqqət yetirilirdi. Yəqin ki, buna görə də bu peşəyə məndə maraq var. Lakin onu da qeyd edim ki, 2003-cü ildə Polis Akademiyasında bədən tərbiyəsi üzrə baş müəllim işləmişəm. 2004-cü ildə isə Polis Akademiyasında ikinci təhsilimi almışam. Hazırda polis orqanlarında polis mayoru kimi çalışıram.

***- Yeri gəlmişkən, ailədə neçə övlad olmusunuz?***

- 7 övlad olmuşuq. 1 bacım və 5 qardaşım var. Ailənin ən kiçik övladı mən olmuşam.

***- Ailənizdə sizdən başqa idmanla məşğul olan varmı?***

- Bəli. Qardaşlarım idmanla məşğul olublar. Qardaşım Verişan Mirəliyev sambo üzrə idman ustasıdır. Digər qardaşım Alişan isə boksçu olub. Onu da deyim ki, mənim dayım Özbəkistanda tanınmış pəhlavan idi. Yəqin ki, idmana həvəs dayımdan keçib.

***- Övladlarınız idmanla məşğul olurlarmı?***

- İki oğul və iki qız övladım var. Ən böyük övladım oğlandır. Karyeramla bağlı səfərlərdə olduğum üçün onunla məşğul olmağa az vaxt ayırdım. Böyük oğlum təhsilə üstünlük verib, universitetdə oxuyur. Qızım da universitetə hazırlaşır. Balaca qızım hələ ki, məktəbdə oxuyur. Kiçik oğlum Rəsul isə hələ balacadır, 10 aylıqdır. Çox istəyirəm ki, o, idmanla məşğul olsun. Təbii ki, bu, həmçinin uşağın özündən asılıdır. Bacardığım qədər çalışacağam ki, onun gələcəkdə idmançı kimi yetişməsinə nail olum. Əgər uşağın özü peşəkar idmanı seçsə, buna qarşı çıxmaram. Yəni bu tək mənim istəməyimlə bağlı deyil, gərək uşağın özünün də marağı olsun.

***- Asudə vaxtlarınızı necə keçirirsiniz?***

- Dostlarımla futbol, basketbol oynayıram. Basketbol oynamağı çox sevirəm. Hərdən tatamiyə çıxıb gənc cüdoçularla da güləşirəm. Amma etiraf edim ki, mənim üçün cüdonun yerini heç bir idman növü vermir.

***- Cüdo sizin üçün nədir?***

- Cüdo mənim həyat tərzimdir. Mənim üçün ailəm və dostlarımdan sonra cüdo gəlir. Zədələrimə baxmayaraq yenə də cüdodan uzaqlaşmadım. Belə demək mümkünsə, bu növdən əl çəkə bilmirəm.

***- Cüdo və sambo arasında sizə ən doğma olanı hansıdır?***

- Hər ikisini deyərdim. Sambo idman karyeramın əvvəli, cüdo isə sonudur. Sambo ruslarin yaratdığı bir idman növüdür. SSRİ dövründə samboya daha çox üstünlük verirdilər. Demək olar ki, 45-ə yaxın ölkədə bu idman növü inkişaf edib. Amma təəssüf ki, ruslar bu növü inkişaf etdirib, Olimpiya proqramına daxil edə bilmədilər. Yaponların yaratdığı cüdo növünün isə çox qədim tarixi var. Cüdoda bu gün də rəqabət çox güclüdür. Elə idmançılar var ki, gözlənilmədən qalib gələrək çempion olurlar.

***- İdmanda bəxt amilinə inanırsınız?***

- Bəzi idmançılar deyirlər ki, şans çox vacibdir. Amma mənim fikrimcə, şansdan da vacib idmançının fiziki imkanlarıdır. Hər şeyi bəxt amilinin üzərinə atmaq düzgün deyil. Əgər fiziki cəhətdən güclü olmasan o şans sənə verilməz. Öz üzərində çox çalışmasan, məşqlərə səhlənkar yanaşsan, heç Olimpiya oyunlarına vəsiqə də qazana bilməzsən. Bunun üçün gərək idmançı hazır olsun. Fiziki gücün, texnikan buna imkan versin.

***- Siz, həmçinin 2003-cü ildə cüdo üzrə dünya çempionatında bürünc medal qazanmısınız.***

- 2003-cü ildə Yaponiyanın Oskara şəhərində cüdo üzrə dünya çempionatında iştirak etdim. Bu mənim ilk dünya çempionatım idi. Öz çəkimdə məğlub oldum. Yarışın sonuncu günündə mütləq çəkidə gücümü sınadım. Həmin yarışda 90 kq-dan yuxarı bütün idmançılar iştirak edə bilərdi. Rəqiblərimin hamısı məndən çəki baxımdan üstün idilər. Elə idmançılar var idi ki, çəkiləri 160-170 kiloya yaxın idi. Hətta elə bir cüdoçu var idi ki, 180 kiloluq tərəzi həmin idmançıya tab gətirmədi. Həmin idmançı məndən çox ağır olduğu üçün fənd ata bilmirdim. Amma rəqib idmançı passiv güləşdiyi üçün xəbərdarlıq aldı və ona qalib gəldim. Yarımfinalda estoniyalı idmançıya məğlub oldum. Bürünc medal uğrunda görüşdə rumıniyalı cüdoçu ilə qarşılaşdım. Həmin idmançının çəkisi isə 130 kilo idi. Həlledici görüşdə rəqibimə qalib gələrək bürünc medal qazandım.

***- Gələcəkdə veteranların yarışında iştirak etməyi düşünürsünüzmü?***

- 2014-cü ildə İspaniyanın Malaqa şəhərində veteranlar arasında keçirilən dünya çempionatında qızıl medal qazandım. Lakin hazırda işlərimin çoxluğu ilə əlaqədar veteranların yarışında iştirak edə bilmirəm. Amma gələcəkdə yenidən tatamiyə qayıtmağı düşünürəm. Bu il ilk dəfədir ki, Azərbaycan çempionatında veteran idmançıların yarışı proqrama daxil edilib. Bu, karyerasını başa vuran idmançılar üçün çox gözəl fürsətdir.

***- Ən böyük arzunuz nədir?***

- Təbii ki, hər bir insan kimi mənim də arzularım var. Bir arzum var ki, bunu hələ də həyata keçirə bilməmişəm. Çox istəyirdim ki, Gəncə şəhərində cüdo klubu açım. Pekin Olimpiadasından sonra bu arzumu həyata keçirmək üçün bir neçə dəfə müraciət etdim ki, mənə torpaq sahəsi ayrılsın və klub yaradım. Çox təəssüf ki, alınmadı. Lakin çalışacağam ki, bu arzumu həyata keçirim. Mən Gəncədə böyüyüb, boya-başa çatmışam. İstəyirəm ki, bu bölgədə idmanın inkişafı üçün öz töhfəmi verim.

***- Özünüzdə bəyəndiyiniz və bəyənmədiyiniz xüsusiyyətlər hansılardır?***

- Bəyəndiyim xüsusiyyətim səmimi olmağımdır. Həmişə sadə olmuşam. Heç vaxt "mən" sözünü işlətməmişəm. Özümdən razılıq etməmişəm. Bu da, yəqin ki, ailə tərbiyəsindən irəli gəlir. Bəyənmədiyim xüsusiyyətim isə hər hansısa bir tədbirdə və ya müsahibədə sıxılmağımdır. Özümdən asılı deyil, çox həyəcanlanıram, sıxılıram.

***- Fiziki cəhətdən çox güclü idmançı olmusunuz. Yəni bir neçə il də karyeranızı davam etdirə bilərdiniz. Lakin 2010-cu ildə karyeranızı başa vurdunuz.***

- Pekin Olimpiadasından sonra iki il güləşdim. Bir neçə yarışlarda iştirak etdim. Lakin qaydaların dəyişilməsinə görə çətinlik çəkdirdim. 2010-cu ilə qədər özümü sınadım. Amma bacarmadım. Əgər cüdoda qaydalar dəyişilməsə idi, yəqin ki, London Olimpiya Oyunlarında da iştirak edərdim. Düzdür, Londonda 38 yaşım olacaqdı. Amma yaşımın çox olmasına baxmayaraq özümü yaxşı hiss edirdim. Heç vaxt məşqlərdən yorulmurdum.

***- Əgər bir gün gənclik illərinə qayıtmaq şansınız olsa idi başqa hansı idman növündə özünüzü görmək istəyərdiniz?***

- Cüdo ilə yanaşı, güləş idman növünü də çox sevirəm. Əgər əvvəlki illərə qayıtmaq mümkün olsa idi, sərbəst güləş yarışlarında da gücümü sınamaq istəyərdim.

***- Gənc idmançılara tövsiyəniz nədir?***

- Tövsiyəm ondan ibarətdir ki, əzmkar olsunlar, çətinliklərdən qorxmasınlar. Bu gün ölkəmizdə idmanın inkişafı üçün hər cür şərait var. Gənclərimiz çalışsınlar bu şəraitdən yararlansınlar, sağlamlıqlarının qeydinə qalsınlar.

*Azər Əlizadə*

# Dekabr ayının yekunu Olimpiya dünyası-nın təqdimatında




## Gimnastika

Rusiyanın paytaxtı Moskvada “Olimpiyski” idman kompleksində Mixail Voronin kuboku uğrunda idman gimnastikası üzrə XXIV beynəlxalq turnir keçirilib. Yarışda 26 ölkədən 164 idmançı iştirak edib. Qadın idman gimnastlarımızdan Marina Nekrasova və Yuliya İnşina ilk olaraq komanda hesabında fərqləniblər. Onlar yalnız Rusiya və Özbəkistan komandasından geri qalaraq 95.950 xalla turnirin bürünc medalına sahib olublar. Ayrı-ayrı alətlər üzrə finallarda isə Marina Nekrasova şəxsi hesabına da medal yazdırmağı bacarıb. Gimnastımız sərbəst hərəkətlərdə gümüş medala (12.266 xal) layiq görülüb. Növbəti uğurlu çıxışını Marina gimnastika tirində nümayiş etdirib. Bu alətdə icrasına görə hakimlərdən 12.433 xal alan idmançımız ikinci bürünc medalını qazanıb.

## Güləş

Qazaxıstanın paytaxtı Astanada Əməkdar məşqçi Axmetcan Kazımbetovun xatirəsinə həsr olunan yeniyetmə güləşçilər arasında beynəlxalq turnir keçirilib. Yarışda sərbəst güləş üzrə yeniyetmələrdən ibarət yığma komandamızın üzvləri də iştirak ediblər. Azərbaycan komandası ilə yanaşı, Özbəkistan, Qırğızıstan, Rusiya və Qazaxıstan pəhlivanlarının da iştirak etdikləri turnirdə güləşçilərimiz üç qızıl medal qazanıblar. Əlihəsən Əmirli (45 kq), Elvin Dünyamalıoğlu (65 kq) və Fuad Mayılov (80 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıblar.




## Cüdo

Rusiyanın Sankt-Peterburq şəhərində cüdo üzrə “World Masters” beynəlxalq turniri keçirilib. Komandamız yarışda 7 idmançı ilə təmsil olunub. Cüdoçularımız turnirdə iki bürünc medala sahib çıxıblar. Komandamıza bürünc medalları Hidayət Heydərov (73 kq) və Elxan Məmmədov (100 kq) qazandırıb.

* * *

Şəmkirdə Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunan yeniyetmələr arasında cüdo üzrə beynəlxalq turnir keçirilib. Azərbaycan Cüdo Federasiyası və Şəmkir Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə keçirilən yarışda idmançılar müxtəlif çəki dərəcələri üzrə qüvvələrini sınayıblar. 32 komandadan 347 cüdoçunun iştirak etdiyi çempionatda ümumi medal sayında UGİM-1 komandası birinci, “Zirvə” ikinci, “Atilla” klubu isə üçüncü olub.

* * *

Sumqayıt Olimpiya İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş cüdo üzrə VI beynəlxalq turnir keçirilib. Yeniyetmələr arasında təşkil olunan yarışda 39 komandanın tərkibində 563 idmançı qalib adı uğrunda mübarizə aparıb. Gənclər və İdman Nazirliyi, Azərbaycan Cüdo Federasiyası, Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə keçirilən turnirdə Azərbaycan idmançıları ilə yanaşı, Rusiyanın Nalçik, Dərbənd şəhərlərinin, eləcə də Ukraynanın yeniyetmə cüdoçuları qüvvələrini sınayıblar.

Yarışda fərqlənən idmançılar diplom, medal və qiymətli hədiyyələrlə təltif olunublar.

## Voleybol

Bakının kişi voleybolçulardan ibarət “Lokomotiv” komandası “Çağırış kuboku” turnirinin 1/16 final mərhələsinin ilk oyunları çərçivəsində Portuqaliyanın “Fonte Bastardo” komandası ilə qarşılaşıb. Azərbaycan Voleybol Mərkəzində təşkil olunan oyunda Bakı təmsilçisi 3:1 hesabı ilə qalib gəlib. Komandalar arasında cavab oyunu bir həftə sonra Portuqaliyada təşkil olunub. “Qızıl set”də rəqibinə 25:23 hesabı ilə qalib gələn “Lokomotiv” 0:3 hesablı məğlubiyyətə baxmayaraq turu keçən tərəf olub.

Komandamızın 1/8 final mərhələsindəki rəqibi Yunanıstanın “Olimpiakos” klubu olacaq.

## Karate

Sumqayıt Olimpiya İdman Mərkəzində Qara və Xəzər dənizi ətrafı ölkələrin növbəti çempionatı keçirilib. Qara və Xəzər dənizi ölkələri Karate Federasiyasının təşkilatçılığı ilə keçirilən turnirdə Azərbaycan, Türkiyə, İran, Rusiya, Qazaxıstan və Gürcüstan komandaları mübarizə aparıb. Yarışda 7-12 yaşlı uşaqlar, yeniyetmə və gənclər, böyüklər, eləcə də veteran idmançılar qüvvələrini sınayıblar. Turnirdə fərqlənən idmançılar diplom, medal və qiymətli hədiyyələrlə təltif olunublar.

## Boks

Azərbaycan boksunun banisi Abbas Ağalarovun xatirəsinə həsr olunmuş gənclər arasında ənənəvi beynəlxalq turnir keçirilib.

Bakıda təşkil olunan yarışda Azərbaycanla yanaşı, Rusiya, Ukrayna, Tacikistan, Hindistan, İran, Türkmənistan, Pakistan, Qazaxıstan, Gürcüstan və Özbəkistanı təmsil edən dəri əlcək ustaları da qüvvələrini sınayıblar. Komandamız turnirdə 3 qızıl, 2 gümüş və 7 bürünc medal qazanıb. Yarışda 12 medal qazanan yığmamız bu nəticə ilə komanda hesabında birinci yeri tutub.

“Qəbələ” idman klubunun boksçusu Zamiq Atakişiyev peşəkar rinqdə növbəti döyüşünü keçirib. 31 yaşlı idmançımız Rusiyanın Yekaterinburq şəhərində keçirilən “Extra Round 5” turnirində iştirak edib. Superağır çəki dərəcəsində rinqə çıxan Zamiq Atakişiyev Ukrayna təmsilçisi German Skobenko ilə üz-üzə gəlib. Altı raund davam edən döyüşdə qalib müəyyənləşməyib. Bu, boksçumuzun peşəkar rinqdə ilk heç-heçəsidir. Yekaterinburqdakı döyüşünədək 4 qarşılaşmaya çıxan boksçumuz bütün rəqiblərinə qalib gəlib.

## Şahmat

Çinin Huayan şəhərində II Dünya İntellektual Oyunları keçirilib. Yarışlar çərçivəsində 5 növ - bric, dama, şahmat, qo, Çin şahmatı və ma-conq stolüstü oyunlar üzrə görüşlər keçirilib. Şahmat turnirində Asiya, Amerika, Afrika və Avropa ölkələrindən 12 qadın və 12 kişi şahmatçı mübarizə aparıb. Ölkəmizi kişi şahmatçıların turnirində Şəhriyar Məmmədyarov və Rauf Məmmədov təmsil edib. Qrossmeysterimiz Şəhriyar Məmmədyarov turnirin gümüş medalına layiq görülüb. Rauf Məmmədov isə 12-ci yerlə kifayətlənib.

* * *

Avstraliyanın Adelaida şəhərində şahmat üzrə “Australian Young Masters GM Norm” turniri keçirilib. Beynəlxalq turnirdə Azərbaycan, Avstraliya, Rusiya, Hindistan, Fransa və İndoneziyadan ümumilikdə 10 şahmatçı iştirak edib. İsveçrə sistemi üzrə keçirilən turnir 9 turdan ibarət olub. Yarışda ölkəmizi beynəlxalq şahmat ustası Kənan İzzət təmsil edib. O, 9 mümkün xaldan 6,5 xal toplayaraq yarışları birinci yerdə başa vurub.

* * *

Rusiyanın paytaxtı Moskvada “Şelkunçik” adlı ənənəvi şahmat turniri keçirilib. Yarışda qələbə uğrunda 16 zəka sahibi mübarizə aparıb. Yarışda “Krallar” komandasının heyətində azərbaycanlı Şəhriyar Məmmədyarov, israilli Boris Gelfand, latviyalı Aleksey Şirov və rusiyalı Sergey Rublyovski çıxış edib. Şevening sistemi üzrə keçirilən turnir iki dövrədən ibarət olub. Turnirin yekunlarına əsasən Şəhriyar Məmmədyarovun da yer aldığı “Krallar” komandası “Şahzadələr”ə 31,5:32,5 hesabı ilə məğlub olub. Təmsilçimiz Şəhriyar Məmmədyarov (“Krallar”) öz komandasında ən yaxşı fərdi nəticə göstərib - 11 (7+4).

## Futbol

Dekabrın 6-da Ağdamın “Qarabağ” klubu futbol üzrə UEFA Çempionlar Liqasının 2017-2018-ci il mövsümündə sonuncu oyununu keçirib. Azərbaycan çempionu turnirin qrup mərhələsinin sonuncu - altıncı turunda İtaliya paytaxtında “Roma” klubunun qonağı olub. 72 min azarkeş tutumuna malik olan Romanın “Olimpiko” stadionunda keçirilən qarşılaşmanın 53-cü dəqiqəsində Dieqo Perotti İtaliya təmsilçisini hesabda önə çıxarıb. Komandaların cəhdlərinə baxmayaraq oyunun sonunadək hesab dəyişməyib. Beləliklə, görüş “Roma”nın 1:0 hesablı qələbəsi ilə yekunlaşıb. Aktivində 2 xal olan “Qarabağ” qrupu sonuncu pillədə başa vurmaqla avrokuboklardakı çıxışını dayandırıb.

* * *

Dubayda təlim-məşq toplanışında olan futbol üzrə 17 yaşınadək qızlardan ibarət Azərbaycan yığması yoldaşlıq oyunu keçirib.

Birləşmiş Ərəb Əmirliklərinin müvafiq yaş qrupuna aid komandası ilə qarşılaşan yığmamız 2:0 hesabı ilə qələbə qazanıb. Millimizin qollarını Anna Abulaşvili və Minarə Gözəlova vurublar.

## Ciu-citsu

Belarusun paytaxtı Minskdə ayrı-ayrı beynəlxalq federasiyaların birgə təşkilatçılığı ilə yeddinci “Döyüş Növlərinin Dünya Oyunları” yarışları keçirilib. Çempionatda 71 ölkədən 4 minədək idmançı 16 döyüş növü üzrə güclərini sınayıblar. Yarışda ölkəmizi Daxili İşlər Nazirliyinin (DİN) İdman Cəmiyyətinin beş üzvü təmsil edib. Oyunların tərkibində keçirilən ciu-citsu üzrə dünya çempionatında polis idmançılarımız uğurla çıxış ediblər. Təmsilçilərimiz Eldar Abdullayev (86 kq) qızıl medala sahib çıxıb. Digər idmançılarımız Həsən Əliyev (80 kq) və Elşən İbişov (94 kq) gümüş medala layiq görülüblər.

## Budo

Bakı İdman Sarayında budo döyüş növləri üzrə dünya kuboku keçirilib. Turnirdə Azərbaycan, İran, Rusiya, Şimali Kipr, Türkiyə, Hindistan, Özbəkistan, Misir və Gürcüstandan ümumilikdə 800 idmançı mübarizə aparıb. İdmançılar budo döyüş növünün semi kontakt, ful kontakt, layt kontakt, fri kontakt, S-1, B-1, F-1, silahlı kata, kata, “submission” və “self defens” versiyaları üzrə güclərini sınayıblar. Qaliblər diplom və medallarla təltif olunublar.

## Parataekvondo

Portuqaliyada IWAS versiyası üzrə fiziki məhdudiyyətli idmançılar arasında keçirilən Dünya Oyunlarının taekvondo yarışlarında Azərbaycan idmançıları uğurla çıxış ediblər. Millinin kapitanı Nicat Müslümov 75 kq çəki dərəcəsində (K42) qızıl, 43 kateqoriyalı idmançıların yarışında isə gümüş medal əldə edib. Eyni kateqoriyada digər idmançımız Xəzər Mirzəyev və 75 kq-dan yuxarı çəki dərəcəsində çıxış edən Vüqar Adışirinov (K44) bürünc mükafata layiq görülüblər. Qadınların mübarizəsində isə Röyalə Fətəliyeva (49 kq, K44) bürünc medala sahib olub. Beləliklə, parataekvondo üzrə milli komandamız 1 qızıl, 1 gümüş və 3 bürünc medalla komanda hesabında üçüncü yeri tutub.

## Atıcılıq

Gürcüstanın paytaxtı Tbilisidə güllə atıcılığı üzrə beynəlxalq turnir keçirilib. Şota Kveliaşvilinin xatirəsinə həsr olunmuş yarışda təmsilçimiz Ruslan Lunyov pnevmatik tapançadan 10 metr məsafəyə atəşaçmada 574 xal toplayaraq qalib adını qazanıb.

Güllə atıcımız sözügedən şəhərdə təşkil olunan açıq Gürcüstan çempionatında da bacarığını nümayiş etdirib və bu dəfə də mükafata sahib olub. Eyni silahdan eyni məsafəyə atəşaçma yarışında idmançımız gümüş medala (565 xal) layiq görülüb. Qoşa yarışlarda isə Ruslan Lunyov və Nigar Nəsirova cütlüyü 478 xalla birinci yeri tutub.

## Taekvondo

Gürcüstanda taekvondo üzrə “Tbilisi Open” beynəlxalq turniri keçirilib. Açıq birincilikdə 59 kq çəki dərəcəsində gənclər arasında mübarizə aparan təmsilçimiz Samir Məhərrəmov qızıl medala layiq görülüb. Digər taekvondoçumuz Rahid Vəliyev isə 33 kq çəki dərəcəsində beynəlxalq turnirin ən yüksək mükafatına sahib olub.

## Kikboksinq

Hollandiyanın Rotterdam şəhərində kikboksinq üzrə “Glory” seriyalı növbəti turnir keçirilib. Azərbaycanın və “Qəbələ” idman klubunun təmsilçisi Alim Nəbiyev də “Glory 49”-un iştirakçısı olub. Yarımorta çəki dərəcəsində çıxış edən idmançımız turnirin sabiq çempionu hollandiyalı Niki Holtskenlə qarşılaşıb. Üç raund davam edən döyüşdə rəqibini aşkar üstələyən Alim Nəbiyev hakimlərin yekdil qərarı ilə qələbə qazanıb. Bununla da “Glory” reytinqindəki xal hesabını 466-ya çatdıran Alim siyahıda 6-cı pillədə qərarlaşıb.

## Döyüş sənəti

Azərbaycan idmançıları Ukraynanın Xarkov şəhərində keçirilən döyüş sənəti üzrə dünya çempionatında iştirak ediblər. Yarışda 28 ölkədən 950 idmançı qüvvəsini sınayıb. Komandamız çempionatda 18 idmançı ilə təmsil olunub. İdmançılarımız yarışda 7 qızıl və 6 gümüş medal qazanıblar.

## Muay-tay

Türkiyənin Antalya şəhərində muay-tay idman növü üzrə Avropa kuboku yarışları keçirilib. Yarışda Azərbaycan yığma komandası üç məşqçinin rəhbərliyi altında 16 idmançı ilə təmsil olunub. Milli komandamız turnirdə 5 gümüş və 7 bürünc medala sahib çıxıb.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

# UEFA Gənclər Liqası gənc futbolçular üçün ciddi sınaq, böyük təcrübə və əsl məktəbdir

*2017-ci ili Azərbaycan futbolu üçün uğurlu hesab etmək olar. Çünki “Qarabağ” tarixində ilk dəfə olaraq UEFA Çempionlar Liqasının qrup mərhələsində iştirak etmək hüququ qazanıb. Təmsilçimiz qrupda “Çelsi” (İngiltərə), “Atletiko” (İspaniya) və “Roma” (İtaliya) kimi tanınmış komandalarla qarşılaşıb. Son çempionumuz çətin rəqiblərlə başabaş mübarizə apararaq, 2 xal toplayıb.*

*“Qarabağ” Çempionlar Liqasının qrupuna vəsiqə qazandığına görə, klubun U-19 komandası UEFA Gənclər Liqasının qrup mərhələsində iştirak etmək imkanı qazanıb. Təəccübləndirici olsa da, U-19 əsas komandadan daha yaxşı nəticə göstərib. Gənc futbolçular səfərdə güclü “Atletiko” klubunu məğlub edərək, qrup mərhələsini 3 xalla başa vurublar.*

*“Olimpiya dünyası” qəzeti “Uşaq və gənclərin fiziki və inkişafı” layihəsi çərçivəsində budəfəki yazını “Qarabağ”ın U-19 komandasına həsr edir. Bununla əlaqədar olaraq, “Qarabağ” klubunun baş məşqçisi Qurban Qurbanov, U-19 komandasının baş məşqçisi Rəşad Sadıqov, bu heyətin kapitanı Zaur Fərzəliyev və yarımmüdafiəçisi İbrahim Qədirzadə ilə müsahibəni oxucularımıza təqdim edirik. Belə ki, baş məşqçi ilə futbolçular mötəbər turnir barəsində fikirlərini bildirib, keçirilən oyunları təhlil ediblər.*



## Qurban Qurbanov: “Nəticə baxımından U-19 komandasından razı qaldım”

***- 2017-ci il yekunlaşmaq üzrədir. Bu ili “Qarabağ” klubu üçün uğurlu hesab etmək olarmı?***

- Çox ağır və yaddaqalan il oldu. Azarkeşlər son iki ildə bizdən komandanın Çempionlar Liqasının qrupuna düşməsini istəyir və hətta tələb edirdilər. Bu mövsüm çətin keçdi. Azərbaycan komandası ÇL-in qrupuna düşməyi bacardı. Bu il “Qarabağ” həm ölkə çempionu oldu, həm də ölkə kubokunu qazandı. Dekabrda Premyer Liqanı lider kimi başa vurmaq istəyimiz də yerinə yetdi. Bütün bu nəticələr 2017-ci ilin bizim üçün uğurlu keçdiyini deməyə imkan verir. Bəzi klublar var ki, rəhbərlik də daxil olmaqla, məşqçilər, futbolçular kiçik uğur qazandıqdan sonra rahatlaşır və “Gələn il qrupa düşməsək də, bizə heç kim heç nə deməyəcək” fikri ilə fəaliyyət göstərir. Amma bü cür düşüncələrin yaranmasına imkan vermədik. Beləliklə, ÇL-in qrupuna düşməyi bacardıq. “Qarabağ”ın rəhbərliyinə, futbolçularına və azarkeşlərinə təşəkkür edirəm. Uğurlar bizi rahat etməməlidir, daha yüksək nəticələr uğrunda mübarizə aparmaq lazımdır. Bir neçə təşkilat tərəfindən “İlin məşqçisi” mükafatına layiq görülməyim mənim dövlətimiz, xalqımız və azarkeşlər qarşısında məsuliyyətimi birə-beş artırır. Lakin iki böyükhesablı məğlubiyyət məni çox məyus etdi. İngiltərənin “Çelsi” komandasına ev və səfər matçlarında uduzduq. Belə olmasını heç istəməzdim. Amma hadisələrə real yanaşmaq və obyektiv olmaq lazımdır. Futbolda belə hesablar olur.

***- “Qarabağ” Çempionlar Liqasının qrupuna vəsiqə qazandığına görə, klubun U-19 komandası Gənclər Liqasının qrup mərhələsində iştirak etmək imkanı əldə etdi. Gənc futbolçuların keçirdiyi 6 oyunu necə qiymətləndirirsiniz?***

- Düşünürəm ki, gənc yaşında mötəbər turnirdə iştirak etmək futbolçuların inkişafı üçün böyük təkandır. Bu yaşda Çempionlar Liqasının gücünü hiss etməyin böyük faydası var. Nəticə baxımından U-19 komandasından razı qaldım. Rəşad Sadıqovun rəhbərliyi altında çalışan futbolçular ilk oyunlarda çətinlik çəksələr də, qrupda qələbə qazanmağı bacardılar. Düşünürəm ki, gənclərimiz ölkəmizi layiqincə təmsil etdilər.

***- U-19 komandasının heyətində hansı futbolçunun oyununu bəyəndiniz və onu əsas heyətə dəvət etmək fikriniz varmı?***

- Hər hansı futbolçunun adını çəkmək istəmirəm. Amma heyətdə potensialı olan, perspektivli futbolçular kifayət qədərdir. Amma onlar öz üzərində hələ çox işləməlidirlər.

***- Oğlunuz Musa Qurbanov da futbolçudur. Adətən valideynlər peşə seçimi zamanı övladlarına yol göstərirlər. Bu seçimdə sizin nə dərəcədə rolunuz olub?***

- Musanın 16 yaşı gələn ilin aprel ayında tamam olacaq. Buna baxmayaraq, o, Gənclər Liqasının oyunlarında U-19 komandasının heyətinə dəvət olundu. Musa klubla birlikdə məşqlərdə iştirak etdi. O, U-17 milli komandasına yeni dəvət olunub. Düzünü desəm, oğlumun futbolu seçməsində mənim heç bir rolum olmayıb. O, həqiqətən, futbolu çox sevir.

***- Mütəxəssislər futbolda uğur qazanmaq üçün uşaq futboluna diqqət artırmağın vacib olduğunu deyirlər...***

- Hazırda aşağı yaş qruplarında problemlər kifayət qədərdir. Bunlardan biri haqqında sizə danışacağam. Valideynlər futbolçulara həddindən artıq çox mane olurlar. Tanıdığım belə futbolçuların sayı çoxdur. Biz valideynləri də futbola münasibətdə düzgün formalaşdırmağı bacarmalıyıq. İngiltərənin “Çelsi” klubunun akademiyasına getmişdim. Akademiyada ən böyük problem valideynlərlə bağlı idi. Rəhbərlik valideynlərlə ayrıca görüşlər keçirir, maarifləndirici söhbətlər aparır. Uşaqla yanaşı, onun valideyni, ətrafı da komandanı sevməlidir. Futbola gələn uşaq müsbət insani keyfiyyətlərə malik deyilsə, ondan heç vaxt yaxşı futbolçu olmayacaq.

***- Uşaq futbolçular süni meydançada yetişirsə, necə sağlam futboldan danışa bilərik?***

- Avropanın hər bir yerində süni örtüklü meydançalar var. Lakin müəyyən yaş dövründən sonra belə meydançalardan uzaqlaşmaq lazımdır. Avropa komandaları səviyyəsində olmaq üçün onların standartlarına uyğunlaşmalıyıq. Süni meydançaları salmaq və saxlamaq asandır. Təbii ot örtüyündə məşq olanda ot tez-tez yararsız hala düşür. Qeyd edim ki, illər keçdikcə süni meydanların sayı azalır. Aşağı yaş qrupunda futbolçu süni meydana görə zədələnmir. O, düzgün qidalanmır və qaydasında məşq etmir. Gəlin görək, idman həkimləri tələblərə cavab verirlərmi? Bütün bunlar yüksək səviyyədə olmalıdır. Futbolçunu kim yetişdirir? Əlbəttə, yaxşı məşqçi və peşəkar həkim. Hər bir mütəxəssis öz işini peşəkar şəkildə görməlidir.

***- Bəs süni meydança problemini necə aradan qaldırmaq olar?***

- “Çelsi” klubunun 32 məşq meydançası var. Bunlardan ikisi süni örtüklü meydançadır. 32 meydanın yalnız 28-dən istifadə olunur. Onlar belə infrastruktura malik olsalar da, yenə deyirlər ki, hələ problemlərimiz var. Təsəvvür edin, bu cür tanınmış klubun da problemləri varsa, daha nə demək olar? Bizim problemlərimizdən biri də süni meydançalardır. Bütün problemləri qısa müddət ərzində həll etmək mümkün deyil. Təbii ki, bir çox problemlərin həllində maliyyə böyük rol oynayır. AFFA bir neçə komandaya sponsorluq edir. Amma bütün problemlərin həllini və yükünü bir təşkilatın üzərinə atmaq düzgün deyil. UEFA da bu məsələyə diqqət ayırır. Qitə futbol qurumu da bizdən öz yardımını əsirgəmir.

***- Ölkə futbolundakı problemlərdən biri də futbolçuların xarici klublarda çıxış etməməsidir...***

- Bu, böyük mövzudur. Bunlar mütləq olmalıdır. Amma desək ki, tezliklə hər şeyi qaydasına qoyacağıq, yalan olar. Futbolçudan əvvəl onu yetişdirən insanlar - məşqçi, həkim, hətta masajçı var. Onların sağlam olması son dərəcə mühümdür. AFFA rəhbərliyi ilə milli yığmanın baş məşqçisi kimi tez-tez görüşəcəyik. Önəmli məsələlərdən biri də 8-10 yaşlı uşaqların sağlam və peşəkar mütəxəssislərə etibar edilməsidir. Həkimlər mütləq sağlam və savadlı olmalıdırlar. Futbolçuların yetişdirilməsi üçün kurslarımız fəaliyyət göstərəcək. Bir sözlə, görüləsi işlər çoxdur.

## Rəşad Sadıqov: “Uşaqların bir az təcrübəsi olsaydı...”

***- “Qarabağ”ın U-19 komandası ölkəmizi ilk dəfə UEFA Gənclər Liqasında təmsil etdi. Keçirdiyiniz 6 oyun haqqında nə deyə bilərsiniz?***

- Komandanın oyunçuları təcrübəsizlikdən əziyyət çəkirdilər. Peşəkarlıq, ustalıq çatışmırdı. Bu, aydın məsələdir və hamımız bilirik. Ancaq hər bir oyunda “qırılma” nöqtəsi oldu. Oturub bütün matçları analiz eləsək, görərik ki, uduzduğumuz hər matçda səhv buraxırdıq və bu da bizə baha başa gəlirdi. Bundan başqa, standart vəziyyətlərin üzərində çox işləmək lazımdır. Çünki belə epizodlarda da qol buraxdıq. Düşünürəm ki, bir az daha yaxşı nəticə göstərə bilərdik. Uşaqların bir az təcrübəsi olsaydı, qrupdakı xalımız üçdən çox olardı. Təəssüf ki, əlimizə düşən imkanlardan istifadə edə bilmədik. Qeyd edim ki, mötəbər turnirdən əvvəl heyətin futbolçuları ilə daha çox işləmək imkanımız olmadı. Heyət 2-3 həftə ərzində formalaşdı və komandaya 8-9 yeni futbolçu dəvət olundu. Vaxt azlığı və futbolçuların təcrübəsizliyi nəticələrdə özünü göstərdi. Baş məşqçi kimi, turnirdə çıxış etmək mənim üçün əla təcrübə oldu. Düzdür, futbolçu karyeramla bağlı bəzi çətinliklər oldu, amma burada çox şey öyrəndim. Əlbəttə ki, “Çelsi”, “Atletiko” və “Roma” kimi komandalarla belə yüksək səviyyəli turnirdə üz-üzə gəlmək çox çətindir. Bu cür rəqiblərlə qarşılaşmaq gənc futbolçular üçün ciddi sınaq, böyük təcrübə və əsl məktəbdir. Bu, futbolda ilk ciddi addımlarını atan Azərbaycan idmanı üçün böyük hadisədir.



***- Qış fasiləsində heyətdən “Qarabağ”ın əsas komandasına hansısa futbolçu cəlb olunacaqmı?***

- Buna Qurban Qurbanov qərar verəcək. Düşünürəm ki, bu komandadan 3-4 nəfər əsas komandada oynaya bilər.

***- Baş məşqçi kimi, uşaq və gənclərin fiziki və mənəvi inkişafını nədə görürsünüz?***

- Baş məşqçisi olduğum komandada 16-dan 19 yaşınadək futbolçular vardı. Bu uşaqları kollektiv halda harasa aparmaq mümkündür. Onların hər birinin gələcəyi öz əllərindədir. Futbolçular öz üzərində daha çox işləməli və peşəkarlıqlarını artırmalıdırlar. Bu, bütün yaş qruplarına aiddir. Bu gün Avropanın tanınmış klublarının bazalarına gedəndə onlardan geri qaldığımızın şahidi oluruq. Gənc komandalar öz yaşıdları arasında çempion olmaq və Avropa turnirlərində uğurlu çıxış etməyi qarşısına əsas məqsəd kimi qoymalıdır. Hər bir futbolçu böyük idmana keçid etmək üçün üzərində çox işləməlidir. Futbola həvəsi olan uşaq və gənclər fərdi qaydada özləri üçün plan qurmalıdırlar ki, gələcəkdə “Qarabağ”da, “Qəbələ”də, milli komandada çıxış edə bilsinlər. Amma müəyyən müddətdən sonra komandalarda yenilənmə olur və hər futbolçu peşəkarlığını artırmalıdır.

***- Hazırda ölkənin uşaq futbolunda çatışmazlıqlar mövcuddur...***

- Bəli, çatışmayan şeylər çoxdur. Futbolçularımız “Atletiko”nun, “Çelsi”nin bazasını görəndə artıq əsl futbolun nə olduğunu anlayırlar. Belə ki, Azərbaycanda təbii ot örtüklü meydança görməyən uşaq və gənclər xaricdə eyni bazada 33-34 meydança görəndə təəccüblənirlər. Akademiyalarda inqilabi dəyişikliklər etməliyik. Uşaq liqalarında ildən-ilə geriləmənin şahidi oluruq. Mühüm tədbirlər görülməsə, bu proses davam edəcək. Baş məşqçi kimi il yarımdır ki, uşaq və gənclərlə işləyirəm. Aşağı yaş qruplarındakı futbolçuları yaxşı tanıyıram. Uşaqlarda inkişaf zəif gedir. Akademiyalarda futbolçularla iş daha yaxşı qurulmalıdır. Elə nüanslar var ki, matçın gedişində 1 metr sağa və ya sola hərəkət etməklə, topu düzgün saxlamaqla oyunun nəticəsini həll etmək olur. Avropalı gənclər belə məqamlarda çox diqqətlidirlər. Bizim akademiyalarda isə buna fikir verilmir və hətta xırda məsələ kimi baxılır. Uşaqlarla daha çox işləmək, onlara daha çox vaxt ayırmaq lazımdır. Elə mövqelər var ki, orada getdikcə futbolçu tapmaq çətinləşir. Azərbaycanda dayaq müdafiəçi mövqeyində futbolçu yetişmir və ya onların boyu çox balacalaşır. Həmin futbolçuların ya çəldliyi, ya da topla rəftarı zəif olur və s. Akademiyalarda olan problemləri aradan qaldırmaqla futbolumuzu daha irəli apara bilərik.

***- U-19-un oyun sistemi əsas komanda ilə üst-üstə düşür. Sadəcə, fərdi ustalıqda bəzi problemlər var idi. Bəs daha aşağı yaş qruplarında bu sistem tətbiq olunurmu?***

- Aşağı yaş qruplarında bu sistemdən çox istifadə olunmur. Uşaqlara daha çox sərbəstlik veririk ki, öyrənsinlər. “Qarabağ”ın U-19 və əvəzedici komandalarında vahid sistemi tətbiq etməyə çalışırıq. Özüm də daxil olmaqla bir çox məşqçilər Qurban Qurbanovun oyun fəlsəfəsinə üstünlük veririk. Məşqçilik etdiyim zaman Qurban müəllimdən çox məsləhət alıram. Gənclər Liqasında U-19-un matçında əsas sistemdə çoxlu dəyişikliklər elədik. Bu, həm mənim üçün, həm də futbolçular üçün xeyirdir. Bu sistem oyunçulara müxtəlif variantlarda oynamağı öyrədir. Avropada hər komanda 2-3 sistem üzərində işləyir. Mən də burada çalışdım ki, bildiklərimi uşaqlara aşılayım. Gərək bütün klublar xaricdə yoldaşlıq oyunlarının keçirilməsində maraqlı olsunlar. Bununla uşaq futbolçular ölkə xaricindəki şəraitlə tanış ola bilirlər, nəsə götürürlər.

***- Yeri gəlmişkən, gənc futbolçularla işinizi bundan sonra da davam etdirəcəksiniz. Buyaxınlarda U-21 və U-20 millilərinin baş məşqçisi təyin edildiniz.***

- Mənə etimad göstərdiklərinə görə AFFA rəhbərliyinə və milli komandanın baş məşqçisi Qurban Qurbanova təşəkkür edirəm. Millidə çalışmaq həm qürurverici, həm də çox məsuliyyətlidir. Əvvəlcə, mənə yalnız U-20 yığmasını çalışdırmaq təklif olunmuşdu. Sonra AFFA-nın baş katibi Elxan Məmmədov və Qurban müəllimlə görüşümüzdə onlar məndən U-21 yığmasını çalışdırmağımı istədilər. Qurban müəllim milli komandalar arasında yeniyetmə və gənclərin üzə çıxarılması, onların beynəlxalq oyun təcrübəsinə malik olmaları üçün U-18 və U-20 yığmasının yaradılması təklifini irəli sürdü. Bildiyiniz kimi, U-20 yığmasına cəlb olunacaq 1998-ci və 1999-cu illər təvəllüdlü futbolçular növbəti seçmə mərhələdən U-21 yığmasına keçid edəcək. Nəzərə almalıyıq ki, seçmə mərhələnin başa çatmasına az qalıb və indidən növbəti yaş qrupunu hazırlamaq lazım gəlir. Bu məqsədlə hər iki yığmanı mənə həvalə ediblər. Komandanı qarşıdakı oyunlara, həm də növbəti seçmə mərhələ üçün formalaşdırmağa çalışacam. 1998-ci və 1999-cu illər təvəllüdlü futbolçulardan ən yaxşılarını təcrübə qazanmaları üçün U-21 yığmasına da cəlb edəcəyik. Futbolçuların seçimi ən çox diqqət yetirməli olduğumuz məqamdır. Milli komandaya işini sevən, perspektivli və milli formaya dəyər verən futbolçular dəvət olunacaqlar. U-20 yığmasındakı məşqçilik fəaliyyətimə may ayından başlayacam. Yoxlama oyunları keçirməyi planlaşdırırıq. Növbəti seçmə mərhələyə qədər komanda formalaşacaq. “Qarabağ”ın U-19 komandasında işimə son verəcəyəm.

## Zaur Fərzəliyev: “Həmyaşıdlarım məndən xarici klubların bazalarındakı şərait barədə soruşurlar”

- Məncə, Gənclər Liqasındakı çıxış bizim üçün böyük təcrübə oldu. Öz üzərimizdə daha çox çalışmalı olduğumuzu keçirdiyimiz oyunlardan sonra anladım. Fiziki göstəricilərimizi çox inkişaf etdirməliyik. Qrupumuzda ən çətin rəqib “Çelsi” klubu oldu. İngiltərə təmsilçisinin fiziki hazırlığı yüksək səviyyədə idi. Belə komanda ilə matçlarda qələbəyə ümid etmək möcüzə sayılır. “Altetiko” klubu ilə səfər matçındakı qələbə bizi sevindirdi, özünəinamı daha da artırdı. Amma digər matçlarda yaxşı çıxış etsək də, məğlub olduq. Buna baxmayaraq, güclü rəqiblərlə oyunlar bizim üçün böyük təcrübə, stimul oldu. Mötəbər turnirdən sonra həmyaşıdlarım məndən getdiyim şəhərlər haqda maraqlanır, xarici klubların bazalarındakı şəraiti barədə soruşurlar. Mən də gördüyüm maraqlı yerlər, bazalar haqda həvəslə cavab verirəm.

## İbrahim Qədirzadə: “Gənclər Liqasında keçirdiyimiz hər bir oyun bizim üçün böyük təcrübədir”

- İlk dəfə idi, belə turnirdə iştirak edirdik. Turnirin bizim üçün çətin keçəcəyini bilirdik. Rəqiblərimiz tanınmış olsalar da, onlardan çəkinmirdik. İmkanımız daxilində layiqli mübarizə aparmağa çalışdıq. Bəzi oyunlarda rəqiblər bizdən təcrübə və ustalıq səviyyəsinə görə üstün idilər. “Çelsi”yə qarşı səfər matçını ən çətin oyun kimi dəyərləndirərdim. İlk hissə 0:0 hesabı ilə başa çatdı. Fasilədən sonra qırmızı vərəqə almağım komandanın 10 futbolçu ilə mübarizə aparmasına səbəb oldu. “Çelsi” kimi komandaya qarşı 10 nəfərlə oynamaq çox çətindir. Komanda yoldaşlarım sonadək mübarizə apardılar.

Turnirdə yeganə qələbə və xalları çətin “Atletiko” səfərində əldə etdik. Oyuna yaxşı köklənmişdik. Qələbə qazanacağımıza inanırdıq. Səfər matçında ümidimizi əks hücumlara yönəltmişdik. Belə hücumların birində qələbə qolunu vurub, 3 xal qazandıq. Çoxları qələbəmizi sürpriz kimi dəyərləndirdilər. “Atletiko” kimi komandanı məğlub etmək uğurdur. İstərdik daha çox xal qazanaq. Təəssüf ki, Bakıda “Çelsi” klubunu məğlub edə bilmədik.

Gənclər Liqasında keçirdiyimiz hər bir oyun bizim üçün böyük təcrübədir. Belə turnirlərdə iştirak etmək, güclü rəqiblərlə tez-tez qarşılaşmaq təcrübəmizi və bizdə özünəinamı artırır.

***Rahib Səmədov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# Məşqçi-müəllimlər və idmançılar mükafatlandırılıblar

"Təhsil" Respublika İdman Mərkəzinin "Zuğulba" Tədris İdman Bazasında Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən Uşaq-Gənclər İdman-Şahmat məktəblərinin 2017-ci ildə yüksək nəticə göstərən məşqçi-müəllimlərinin və idmançılarının mükafatlandırılması mərasimi keçirilib.

Tədbirin keçirilməsində əsas məqsəd məşqçi-müəllimlərin və idmançıların əməyini qiymətləndirmək, onların daha yüksək nəticələr əldə etmələrinə stimul yaratmaq olub.

Tədbirdə 2017-ci ildə mərkəz tərəfindən həyata keçirilmiş idman yarışları, layihələr, respublika və beynəlxalq səviyyəli yarışlarda iştirak, uşaq və gənclərin idmana cəlb olunması və əldə olunmuş uğurlar barədə ətraflı məlumat verilib.

Sonra 2017-ci ildə müxtəlif idman növləri üzrə yüksək nəticə əldə etmiş 22 idmançıya, uşaq və gənclərin idmana cəlb olunmasında, bədən tərbiyəsi və idmanın təbliğində səmərəli fəaliyyət göstərdiyinə görə 26 məşqçi-müəllimə "Təhsil" Respublika İdman Mərkəzinin fəxri fərmanı və hədiyyələr təqdim olunub.

*Xəbərlər*

## Daxili İşlər Nazirliyinin əməkdaşı beynəlxalq turnirin qalibi olub

Azərbaycan boksçusu Abbas Ağalarovun xatirəsinə həsr olunmuş gənclər arasında ənənəvi beynəlxalq turnirdə Daxili İşlər Nazirliyinin (DİN) İdman Cəmiyyətinin üç əməkdaşı qüvvəsini sınayıb.

Azərbaycan Boks Federasiyasının idman zalında keçirilən yarışda yerli idmançılarla yanaşı, 14 xarici ölkənin komandası da qüvvəsini sınayıb. Çempionatda 3 qızıl, 2 gümüş və 7 bürünc medal qazanan Azərbaycan millisi komanda hesabında birinci yeri tutub.

DİN İdman Cəmiyyətinin millimizin heyətində çıxış edən idmançısı, Əflatun Babayev (52 kq) bütün rəqiblərinə qalib gələrək qızıl medala sahib olub. Cəmiyyətin digər yetirməsi Cavid Qurbanov (69 kq) yarımfinala qədər irəliləyərək bürünc medala layiq görülüb.

## "Təhsil liqaları"na start verilib

Azərbaycan Texniki Universitetinin İdman Kompleksində basketbolçulardan ibarət komandalar arasında 2017-2018-ci illər üzrə "Təhsil liqaları"na start verilib. Yarış Təhsil Nazirliyi və Azərbaycan Basketbol Federasiyasının dəstəyi, "Təhsil" Respublika İdman Mərkəzinin təşkilatçılığı ilə keçirilir. 13 (U-13) və 15 yaşınadək (U-15) komandalar arasında təşkil edilən "Təhsil liqaları"nın keçirilməsinin məqsədi yaş qrupları üzrə ən yaxşı basketbolçuların aşkarlanması, onların oyun təcrübəsinin artırılması və yığma komandaların müəyyənləşdirilməsidir.

Təhsil Nazirliyi, Azərbaycan Basketbol Federasiyası və idman ictimaiyyəti nümayəndələrinin iştirak etdikləri açılış mərasimində basketbol idman növünə uşaq və yeniyetmələrin cəlb edilmələri, istedadlı idmançıların aşkara çıxarılmaları baxımından liqaların əhəmiyyətindən danışılıb. Həmçinin belə uşaq-gənclərin idmana maraqlarının artmasında belə tədbirlərin müsbət rolu olduğu vurğulanıb.

Qeyd edək ki, hər iki yaş qrupu üzrə liqalarda idman məktəblərinin, müxtəlif idman təşkilatlarının 24 komandası mübarizə aparır. İki dövrədən ibarət olan liqaların oyunları 2018-ci ilin iyununda başa çatacaq.

## XIII Respublika Spartakiadası yekunlaşdı

"Gənclik" Tələbə İdman Cəmiyəti Respublika Şurasının təşkilatçılığı ilə 2017-ci ilin oktyabr, noyabr, dekabr aylarında orta ixtisas təhsil müəsssələrinin tələbələri arasında keçirillən XIII Respublika Spartakiadasına yekun vurulub. Spartakiadanın təqvim planına idmanın 6 növü - atletika, şahmat, dama, voleybol, basketbol, stolüstü tennis daxil edilib. Spartakiada çərçivəsində keçirilən basketbol (oğlan,qız) üzrə yarışlar Bakı 2 saylı Baza Tibb Kollecinin idman zalında keçirilib. Qızların yarışında birinci yerə Azərbaycan Dövlət Pedaqoji Kolleci layiq görülüb. Bakı Rabitə və Nəqliyyat Kollecinin komandası ikinci, Bakı 2 Saylı Baza Tibb Kollecinin tələbələri isə üçüncü olub. Oğlanların basketbol yarışlarında isə Bakı Sosial İqtisad Kolleci qalib adını qazanıb. Azərbaycan Dövlət Pedaqoji Kollecinin komandası ikinci, Bakı 2 Saylı Baza Tibb Kollecinin basketbolçuları isə üçüncü yeri tutub.

## Media nümayəndələrinin akkreditasiya prosesi davam edir

"Bakı Şəhər Halqası" Əməliyyat Şirkəti (BŞH) gələn il aprelin 27-29-da üçüncü dəfə keçiriləcək Formula-1 Azərbaycan Qran-Prisinə yerli media nümayəndələrinin akkreditasiya prosesini davam etdirir.

Azərbaycan Qran-Prisi daxil olmaqla, bütövlükdə Formula-1 dünya çempionatında yer alan hər bir yarış üçün media nümayəndələrinin akkreditasiyası Beynəlxalq Avtomobil Federasiyası (FIA) və "Formula One Management" (FOM) şirkəti tərəfindən kurasiya olunur.

Yerli media nümayəndələrinin yarışa qeydiyyatı Əməliyyat Şirkətinin vasitəçiliyi ilə həyata keçirilir. Akkreditasiya prosesi gələn il yanvarın 31-dək davam edəcək. Qeydiyyatdan keçmək istəyən jurnalistlər BŞH-nin rəsmi veb-səhifəsinə daxil olaraq müvafiq formanı doldurmalı və tələb olunan sənədləri sistemə yüklədikdən sonra onlayn qaydada müraciət etməlidirlər. Natamam və ya vaxtından gec göndərilmiş müraciət formaları nəzərə alınmayacaq.

BŞH-nin marketinq və kommunikasiya şöbəsinin rəhbəri, milli mətbuat katibi Nigar Arpadarai yerli media nümayəndələrini tezliklə yarışa qeydiyyatdan keçməyə dəvət edərək deyib: "Hər ötən il daha çox sayda yerli media nümayəndəsinin yarışda iştirak etməsi bizi çox sevindirir. Bu il də bütün gücümüzü səfərbər etmişik ki, Azərbaycan Qran-Prisində çoxlu sayda yerli media təmsilçisi iştirak edərək yarışı ölkə ictimaiyyəti üçün yüksək səviyyədə işıqlandıra bilsin".

N.Arpadarai diqqətə çatdırıb ki, Formula-1 yarışlarında iştirak edəcək media nümayəndələri müəyyən kriteriyalara əsasən seçilir və yalnız müvafiq yüksək göstəricilərə malik jurnalistlər FIA və FOM-un təsdiqi ilə yarışa buraxılırlar. Çalışırıq ki, ölkəmizdə Formula-1-dən yazan jurnalistlərin sıraları genişlənməklə və xəbərlərin keyfiyyəti daha da yüksəlməklə akkreditasiyanın tələblərinə cavab verən yerli media nümayəndələrinin sayı artsın. O, bütün yerli jurnalistləri vaxt itirmədən Formula-1 Azərbaycan Qran-Prisinə qeydiyyatdan keçməyə dəvət edib.

Əməliyyat Şirkəti yanvarın 8-də yerli media nümayəndələri üçün Formula-1 Azərbaycan Qran-Prisinin akkreditasiya prosesi ilə bağlı seminar keçirəcək. Seminarda iştirakçılara qeydiyyat prosesi ilə əlaqədar ətraflı məlumat veriləcək.

*Stolüstü tennis*

## Məktəblilər turnirdə yarışdılar



Nərimanov rayonu 258 nömrəli tam orta məktəbin idman zalında Bakı məktəbliləri arasında stolüstü tennis üzrə turnir keçirilib.

Paytaxt məktəblərinin VI-IX sinif şagirdlərinin iştirakı ilə keçirilən və komanda xarakteri daşıyan turnirdə Nizami rayonu 238 nömrəli tam orta məktəbin komandası birinci yeri tutub. Nərimanov rayonunu təmsil edən İstək liseyinin komandası ikinci yerə sahib çıxıb. Sabunçu rayonunun Kaspi liseyinin məktəbliləri isə üçüncü olublar.

Turnirdə ilk üç yeri tutan komandaların üzvləri Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən müvafiq dərəcəli diplom və medallarla təltif olunublar.

*Badminton*

## Rayon turnirinə yekun vurulub

Binəqədi rayonu 276 nömrəli tam orta məktəbdə şagirdlər arasında badminton üzrə açıq rayon turniri başa çatıb. Yarış Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi, Binəqədi rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının icrasına uyğun olaraq keçirilib. Turnirin bağlanış mərasimində Binəqədi rayon gənclər və idman idarəsinin rəisi Elvin Aslanov, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin baş məsləhətçisi Salman Əbdülov, 276 nömrəli tam orta məktəbin direktoru Bəhram Şiriyev, Azərbaycan Badminton Federasiyasının məşqçisi Cavanşir Əlizadə iştirak edərək, gənc idmançıları salamlayıb, onlara gələcək yarışlarda uğurlar arzulayıblar.



Turnirin Olimpiya idman növü olan badmintonun Binəqədi rayonunda inkişaf etdirilməsi, uşaq və gənclərin asudə vaxtlarının səmərəli təşkili, yeniyetmə və gənclər arasında fiziki səviyyənin artırılması məqsədilə keçirildiyini bildirən natiqlər bundan sonra da badminton üzrə mütəmadi olaraq yarışların keçiriləcəyini diqqətə çatdırıblar.

Yarışın nəticələrinə görə, Xətai rayonunun komandası birinci yerə layiq görülüb. Yasamal rayonunun komandası ikinci, Nizami rayonunun badmintonçuları isə üçüncü olub.

Qaliblər Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən kubok, diplom və medallarla təltif olunublar.

# FUTBOL

## Endi Hallidey "Qəbələ"dən gedir?



"Qəbələ" klubunun yarımmüdafiəçisi Endi Hallidey yanvarda müqavilə ilə məxsus olduğu "Reyncers"ə qayıda bilər. Bu barədə məlumatı Böyük Britaniya mətbuatı yayıb.

Bildirilir ki, "qırmızı-qaralar" futbolçunu mövsümün sonuna qədər icarəyə götürsələr də, Şotlandiya klubu onu qış fasiləsində qaytarmaq niyyətindədir. Bu səbəbdən "Reyncers"in baş məşqçisi Qrim Merti və futbol direktoru Mark Allen icarə əsasında başqa komandada olan Endi Hallideyi yanvar ayında qaytarmağın yollarını axtarır. Halbuki, bir müddət əvvəl baş məşqçi Hallideylə bağlı fərqli fikirdə idi.

Qeyd edək ki, Endi Hallidey 2015-ci ildən "Reyncers"ə məxsusdur.

## "Xəzər"in hazırlıq planı bəllidir

I Divizion təmsilçisi "Xəzər"in qış hazırlıq planı bəlli olub. Klubdan verilən məlumata görə, komanda 2017/18-ci illər mövsümünün ikinci yarısının hazırlığına yanvarın 4-də start verəcək. Futbolçular tibbi müayinədən keçdikdən sonra Bakıdakı hazırlığın ilk mərhələsinə qoşulacaqlar.



Yanvarın 16-dan fevralın 3-dək hazırlığın əsas mərhələsi Türkiyənin Antalya şəhərində keçiriləcək. Hazırlıq çərçivəsində 5 yoxlama görüşü də planlaşdırılıb. Rəqiblər hələ müəyyənləşməyib.

## Millinin qapıçısı "Neftçi"də

"Qəbələ" klubundan ayrılan qapıçı Aqil Məmmədov "Neftçi" ilə müqavilə bağlayıb. Əvvəlcə tibbi müayinədən keçən milli komandamızın qapıçısı 5 ay+1 illik müqaviləyə qol çəkib. Bununla da, A. Məmmədov "ağ-qaralar"ın qış fasiləsində ilk rəsmi transferi olub.

Qeyd edək ki, qış fasiləsində Pavel Dreksa, Rahil Məmmədov, Aqşin Qurbanlı, Məqsəd İsayev və Edson Kastilyo ilə yollarını ayıran "Neftçi" Maksim Vaylo, Təyyar Məmmədov və Fəhmin Muradbəylini icarəyə göndərib.

## Paytaxt təmsilçisindən növbəti transfer

"Səbail" dövrələrarası fasilədə növbəti transferini həyata keçirib. Klubdan aldığımız məlumata görə, paytaxt təmsilçisi "Neftçi"nin daha bir üzvünü heyətinə qatıb.

Söhbət yarımmüdafiəçi Aqşin Qurbanlıdan gedir. Premyer Liqanın debütantı A. Qurbanlını icarə əsasında deyil, birdəfəlik transfer edib. "Səbail" buna qədər "Neftçi"dən Rahil Məmmədovu transfer etmiş, Fəhmin Muradbəylini isə icarəyə götürmüşdü.

## "Keşlə"nin heyətində yeni futbolçular



Azərbaycan yığmasının keçmiş futbolçusu Vaqif Cavadovun karyerasını hansı klubda davam etdirəcəyinə aydınlıq gəlib. 28 yaşlı hücumçu "Keşlə" klubuna keçəcək.

Vaqif formasını bərpa etmək üçün bir müddət öncə paytaxt təmsilçisinin məşqlərinə qatılmışdı. Lakin tərəflər maddi məsələdə razılığa gələ bilmədikləri üçün hücumçu "Keşlə"nin düşərgəsini tərk etmişdi. Ancaq onun bu komandaya keçmək söhbəti yenidən gündəmə gəlib.

Hazırda tərəflər arasında danışıqlar aparılır. Məsələnin bu ayın sonuna kimi həllini tapacağı gözlənilir. "Keşlə" V. Cavadovla mövsümün sonuna qədər nəzərdə tutulmuş müqaviləni imzalamaq fikrindədir.

Albaniyanın "Kukesi" klubundan ayrılan Rauf Əliyevin də "Keşlə"yə keçmək variantı var. FİFA-nın qaydalarına əsasən, mövsüm ərzində 3-cü klubun formasını geyinmək mümkün olmadığından, təcrübəli hücumçunun çıxış yolu keçmiş komandasına qayıtmaqdır. "Keşlə"nin məşqçilər korpusu da Raufla müqavilə imzalanmasına razıdır.

Qeyd edək ki, qış fasiləsində Məqsəd İsayev, Kamran Ağayev və Pablo Podio ilə müqavilə bağlayan "Keşlə" rəhbərliyi əvəzində Elnur Abdullayev, Samir Zərgərov, İlkin Qırtımov və Mirsahib Abbasov kimi futbolçularla yolları ayırıb.

## "Real"ın 100 milyon avroluq transferi



İngiltərənin "Liverpul" klubunun hücumçusu Məhəmməd Salah İspaniyanın "Real" komandasına keçməyə razılıq verib.

Misir yığmasının 25 yaşlı futbolçusu öz menecerlərinə kral klubu ilə danışıqlara başlamağa icazə verib. Madrid təmsilçisi hücumçuya görə 100 milyon avro təklif edir. Salah "Real"ın heyətində Qaret Beyli əvəz edəcək.

Qeyd edək ki, "Liverpul" Salahı yayda "Roma"dan 42 milyon avroya transfer edib. 25 yaşlı yarımmüdafiəçi cari mövsümdə keçirdiyi 27 rəsmi oyunda 21 qol vurub.



# DÜNYA İDMANI

## Buffon 80 yaşına qədər oynayacağına söz verib



İtaliyanın "Yuventus" klubunun qapıçısı Canluici Buffon 80 yaşına qədər komandada oynamağa hazır olduğunu bildirib. "Mən karyeramı bitirməklə bağlı sualları necə cavablandıracağımı bilmirəm. Özümü klub və ölkəyə xidmət edən əsgər kimi hiss edirəm. Karyeramı baş vursam da həmişə yaxınlıqda olacağam. Hətta 80 yaşında, əgər digər qapıçı olmasa, sadəcə mənə zəng edə bilərlər. Mən tez məşq edib meydançaya çıxacağam", - deyə Buffon bildirib.

Xatırladaq ki, noyabr ayında DÇ-2018-in pley-off mərhələsi çərçivəsində İsveç komandasına məğlubiyyətdən sonra Buffon göz yaşlarının içində İtaliya yığmasında karyerasını başa vurduğunu bəyan edib.

## Məşhur idmançıların məşhur fikirləri

**Məktəbdə hər dəfə məndən soruşurdular.**
**-Sən böyüyəndə hansı peşəni seçəcəksən?**
**-Futbolçu olmaq istəyirəm, - deyirdim.**
**Onlar mənə deyirdilər: Mənası yoxdur. Özün üçün ciddi bir peşə seç.**
**Mən futboldan mənalı , futboldan ciddi peşə tapa bilmədim.**

***Devid Bekhem***

**Tanrı bizə qanad əvəzinə top verib. O bilir ki, bu hədiyyə daha çox xoşumuza gələcək.**

***Miroslav Kloze***

* * *

***İdmanda uğur qazanmaq istəyənlər gərək öz boyundan yuxarı tullansınlar. Bax uğurun harda olduğunu onda görəcəklər.***

***Lev Yaşin***



**Məni irəli aparan, mənim zəif cəhətlərimdir. Onlara nifrət edib, onları gücləndirirəm.**

***Maykl Cordan***

* * *

**Əgər insan yıxıldıqdan sonra ayağa qalxırsa bu fizika deyil.**
**Bu, xarakterdir.**

***Mayk Tayson***

* * *

**Mən bir vaxtlar futbol ayaqqabımın olmadığı üçün ağlayırdım. O vaxta qədər ki, həyatda bir ayağı olmayan birisini gördüm. Daha ağlamadım.**

***Zinəddin Zidan***

* * *

**Əgər uğursuzluqdan qorxursansa, uğurlu olmağa layiq deyilsən.**

***Çarls Bakerli***

## Van Damm Türkiyədə idman mərkəzi açır

Dünya ulduzu Jan-Klod Van Damm türkiyəli iş adamları ilə birgə idman və sağlamlıq mərkəzi açacaq. Mərkəzin Türkiyədə otuz, dünyada isə yüz filialı olacaq.

İdman və sağlamlıq mərkəzi ilk olaraq Tükiyənin İzmit şəhərində açılacaq. Türk iş adamları ilə birgə biznes qurmaqdan məmnunluq duyduğunu deyən Jan-Klod Van Damm hər zaman belə bir idman mərkəzini arzu etdiyini bildirib.

Türk iş adamları Burçin Şahin və Taner Barlas zamanla mərkəzdə digər dünya ulduzlarının da idman edəcəkləri qeyd ediblər. İş adamları ilk mərhələdə mərkəzdən 200 milyon gəlir əldə etməyi hədəfə alıblar.



## Meyvezer basketbol əfsanəsini bir milyonluq duelə çağırdı



Amerikalı boksçu Floyd Meyvezer NBA çempionu Kobe Brayantı basketbol duelinə dəvət edib. Boksçu bu barədə Brayantın "İnstagram" hesabında paylaşım altında şərh yazıb.

Mən səninlə təkbətək bir milyona oynamağa hazıram, - Meyvezer sosial şəbəkədə bəyan edib.

Kobe Brayant onun bu təklifinə hələ cavab verməyib.

## *İkiqat Avropa çempionu dopinqdə ilişdi*




Atletika üzrə ikiqat Avropa çempionu Naycel Levayn dopinq qalmaqalının qəhrəmanı olub. Böyük britaniyalı atletin A probunda qadağan olunmuş preparat aşkarlanıb. 28 yaşlı idmançının orqanizmində klenbuterol olduğu müəyyənləşib. Lebayının B probunun yoxlanması yaxın günlərdə gerçəkləşəcək.

Məlumat üçün qeyd edək ki, Levayn Avropa çempionluqlarını 4x400 m məsafəyə estafet qaçışında əldə edib.



*"Olimpiya dünyası" qəzetinin arxivindən*

*("Olimpiya dünyası" qəzetinin keçirdiyi I Bakı Beynəlxalq Karikatura Müsabiqəsindən)*

## Dünya çempionatının loqosu tənqidə məruz qaldı

Beynəlxalq Şahmat Federasiyası tərəfindən dünya çempionatı üçün təklif olunan yeni loqotip şahmatçıların tənqidinə məruz qalıb.

Loqotip Moskvanın dizayn bürosu "Şuka" tərəfindən hazırlanıb. Loqotipdə iki nəfərin şahmat taxtasını tutduğu sərgilənir. Onların əlləri və ayaqları bir-birinə bağlanmış şəkildədir.

Avstraliyalı qrossmeyster Devid Smerdonun fikrincə, bu loqotip çox gülüncdür.

Macarıstanlı şahmatçı Syuzen Polqar isə bunu uşaqlara göstərməməyi tövsiyə edib.

Qeyd edək ki, şahmat üzrə dünya çempionatı 2018-ci ilin noyabrında İngiltərənin paytaxtı Londonda start götürəcək.

## Federer Nadaldan yaxşı oynayır!

Tennis üzrə "Böyük dəbilqə" turnirinin 16 qat çempionu Bob Brayan jurnalistlərin Roje Federer və Rafael Nadalın oyunu ilə bağlı suallarını cavablandırıb.

ABŞ tennisçisi deyib: "Nadal setdə kortda özünü əla hiss edir. O, həmişə rəqibə yaxın məsafədə oynadığından çox hərəkətlidir. Federer isə cütlüklərin yarışlarında özünü daha yaxşı göstərir və yavaş hərəkətlidir. Beləliklə, demək olar ki, Nadal fərdi, Federer isə cütlüklərin yarışlarında daha yaxşı oynayır"

## "Ekklstoun bu vəzifədən çoxdan getməliydi"



"Berni Ekklstoun Formula-1 yarışlarının rəhbəri vəzifəsindən çoxdan getməliydi".

Bu sözləri "Mersedes" komandasının rəhbəri Toto Volf deyib. Onun sözlərinə görə, Berni Ekklstoun 4 il əvvəl bu hərəkəti etməliydi: "Təəssüf ki, Berni Ekklstoun Formula-1-in rəhbərliyindən 4 il əvvəl getməyib. Əgər o vaxtında başqa işə keçsəydi, burada öz mövqeyini qoruyub saxlaya bilərdi. Kommersiya ilə məşğul olan bir təcrübəli adam kimi düşünürəm ki, o rəhbərlikdən vaxtında getməliydi".

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı və cümə günləri çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-90-54;
564-74-19